ISSN 2617-8036

# ELMİ XƏBƏRLƏR

Humanitar Elmlər seriyası



1 / 2022

# E L M İ X Ə B Ə R L Ə R

## HUMANİTAR ELMLƏR

## № 1, 2022

©Lənkəran Dövlət Universiteti, 2022 İSSN 2617-8036

# R E D A K S İ Y A H E Y Ə T İ

1. **Rzayev Fikrət *(BAŞ REDAKTOR)***
   *Azərbaycan Dövlət Pedaqoji Universiteti, Bakı, Azərbaycan*
2. **Məmmədov Zaur *(APARICI REDAKTOR)***
   *Lənkəran Dövlər Universiteti, Lənkəran, Azərbaycan*
3. **Abdullayev Əfqan**
   *Azərbaycan Dillər Universiteti, Bakı, Azərbaycan*
4. **Abıyev Aydın**
   *AMEA-nın Akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutu, Bakı, Azərbaycan*
5. **Ağazadə Yədulla**
   *Lənkəran Dövlət Universiteti, Lənkəran, Azərbaycan*
6. **Əlizadə Hikmət**
   *Bakı Dövlət Universiteti, Bakı, Azərbaycan*
7. **Əliyev Bəxtiyar**
   *Bakı Dövlət Universiteti, Bakı, Azərbaycan*
8. **İskəndərov Anar**
   *Bakı Dövlət Universiteti, Bakı, Azərbaycan*
9. **İmanov Telman**
   *Lənkəran Dövlət Universiteti, Lənkəran, Azərbaycan*
10. **Kafkasiyalı Ali**
    *Atatürk Universiteti, Erzurum, Türkiyə*
11. **Kazımov Kamran**
    *Lənkəran Dövlət Universiteti, Lənkəran, Azərbaycan*
12. **Qasımlı Musa**
    *AMEA-nın Qafqazşünaslıq İnstitutu, Bakı, Azərbaycan*
13. **Qorobets Lyudumilla**
    *Armavir Dövlət Pedaqoji Universiteti, Armavir, Rusiya*
14. **Qasımlı Məhərrəm**
    *AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutu, Bakı, Azərbaycan*
15. **Quliyev Akif**
    *Azərbaycan Dillər Universiteti, Bakı, Azərbaycan*
16. **Məmmədov Məsud**
    *Lənkəran Dövlət Universiteti, Lənkəran, Azərbaycan*
17. **Məmmədov Arif**
    *Lənkəran Dövlət Universiteti, Lənkəran, Azərbaycan*
18. **Nikitenko Zinaida**
    *Moskva Dövlət Pedaqoji Universiteti, Moskva, Rusiya*
19. **Orucov Vidadi**
    *Bakı Dövlət Sosial-İqtisadi Kolleci, Bakı, Azərbaycan*
20. **Səbzəliyev Sifariz**
    *Azərbaycan Dövlət İqtisad Universiteti, Bakı, Azərbaycan*
21. **Tahirov İlham**
    *AMEA-nın Nəsimi adına Dilçilik İnstitutu, Bakı, Azərbaycan*
22. **Tahirli Abid**
    *AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu, Bakı, Azərbaycan*

# E D I T O R I A L  B O A R D


1. **Rzayev Fikret *(EDITOR IN-CHIEF)***
   *Azerbaijan State Pedagogical University, Baku, Azerbaijan*
2. **Mammadov Zaur *(MANAGING EDITOR)***
   *Lankaran State University, Lankaran, Azerbaijan*
3. **Abdullayev Afgan**
   *Azerbaijan University of Languages, Baku, Azerbaijan*
4. **Abiyev Aydin**
   *ANAS Institute of Oriental Studies after Academician Z.M.Buniyadov, Baku, Azerbaijan*
5. **Agazade Yadulla**
   *Lankaran State University, Lankaran, Azerbaijan*
6. **Alizade Hikmet**
   *Baku State University, Baku, Azerbaijan*
7. **Aliyev Bakhtiyar**
   *Baku State University, Baku, Azerbaijan*
8. **Iskandarov Anar**
   *Baku State University, Baku, Azerbaijan*
9. **Imanov Telman**
   *Lankaran State University, Lankaran, Azerbaijan*
10. **Kafkasiyali Ali**
    *Ataturk University, Erzurum, Turkey*
11. **Kazimov Kamran**
    *Lankaran State University, Lankaran, Azerbaijan*
12. **Gasimli Musa**
    *ANAS Institute of Caucasus Studies, Baku, Azerbaijan*
13. **Gorobets Lyudumila**
    *Armavir State Pedagogical University, Armavir, Russia*
14. **Gasimli Maharram**
    *ANAS Institute of Literature named after Nizami Ganjavi, Baku, Azerbaijan*
15. **Guliyev Akif**
    *Azerbaijan University of Languages, Baku, Azerbaijan*
16. **Mammadov Masud**
    *Lankaran State University, Lankaran, Azerbaijan*
17. **Mammadov Arif**
    *Lankaran State University, Lankaran, Azerbaijan*
18. **Nikitenko Zinaida**
    *Moscow State Pedagogical University, Moscow, Russia*
19. **Orudjov Vidadi**
    *Baku State Socio-Economical College, Baku, Azerbaijan*
20. **Sabzaliyev Sifaris**
    *Azerbaijan State University of Economics, Baku, Azerbaijan*
21. **Tahirov Ilham**
    *ANAS Institute of Linguistics named after Nasimi, Baku, Azerbaijan*
22. **Tahirli Abid**
    *ANAS Institute of Literature named after Nizami Ganjavi, Baku, Azerbaijan*

# MÜNDƏRİCAT

1. **Türkan Əhmədova**
XI-XIII əsrlərdə Gəncə şəhərində mədəni yüksəliş ............................................... 5
2. **Lalə Əliyeva**
Qədim ingilis poeziyasının dil və üslub xüsusiyyətləri ......................................... 14
3. **Arif İsmayılov**
Evklid alqoritmi və Diofant tənliklərinin həlli ...................................................... 20
4. **Zəhra Qəniyeva**
XIX əsr Təbrizdə möhtəkirlik və Zeynəb Paşanın mübarizəsi ............................... 31
5. **Aysel Mehdiyeva**
Metaforanın tədqiqinin əsas istiqamətləri ............................................................. 37
6. **Emin Məlikov**
Azərbaycan Respublikasının cənub-şərq bölgəsində sənayenin inkişafı tarixindən (2003-2018-ci illər) ........................................................................................ 46
7. **Алексей Панищев**
Национальная элита в контексте естественного права ..................................... 55

# XI-XIII ƏSRLƏRDƏ GƏNCƏ ŞƏHƏRİNDƏ MƏDƏNİ YÜKSƏLİŞ

**Türkan Əhmədova**
Lənkəran Dövlət Universiteti, Lənkəran, Azərbaycan
e-mail: turkan_ahm@mail.ru

**Xülasə.** Azərbaycanın mədəniyyət mərkəzi olan orta əsr şəhərlərindən biri Gəncədir. Şəhər XI-XIII əsrlərdə təkcə Azərbaycanın deyil, eyni zamanda Yaxın Şərqin ən görkəmli şəhərlərindən sayılırdı. Bəhs edilən dövr Gəncə şəhərinin mədəniyyətinin çiçəklənmə dövrü sayılırdı.

Gəncə adı farscadan tərcümədə xəzinə, var-dövlət saxlanılan yer mənasını daşıyırdı. Xəzinə kimi qiymətli olan bu şəhər dünya ədəbiyyatına Əbül-üla Gəncəvi, Qivami Gəncəvi, Nizami Gəncəvi, Məhsəti Gəncəvi, Şətərli Yusif əs-Sirafi və digər dahiləri bəxş etmişdir.

XII-XIII əsrlərdə əhəmiyyətli dərəcədə inkişaf etmiş Gəncə şəhəri ticarət və sənətkarlıq sahələrinin inkişafına görə fərqlənirdi. Gəncənin sənətkar əhalisi sexlərdə birləşmişdi. Onların əsas məqsədi şəhər əyanlarına qarşı durmaq, eyni zamanda sənətkarlar arasında istehsalatı tənzimləmək idi. Bu sənətkar birliklərindən - qərbdə "qardaşlıqlar", şərqdə isə "əxilər" mühüm yer tuturdu. "Əxi" təşkilatları Şərqin orta əsr şəhərlərinin həyatında böyük rol oynamışdı.

Tarix boyu dağıdıcı zəlzələlərin və xarici işğalçıların hücumlarından sarsılan Gəncə şəhəri yenə də, öz xüsusi memarlıq üslubunu, əsrarəngizliyini saxlaya bilmişdir. Günümüzə gəlib çatan memarlıq abidələri Gəncənin mahir ustalarının iş üslubundan xəbər verir.

Qədim və zəngin tarixə malik olan Gəncə şəhəri möhtəşəm müdafiə qurğuları ilə seçilirdi. Lakin Azərbaycanda baş verən dağıdıcı zəlzələlər nəticəsində Gəncədə XII əsrə aid heç bir bina zəmanəmizə salamat gəlib çatmayıb.

XIII əsrin əvvəllərindən başlayan monqol basqınlarının fəsadları da Gəncə şəhərindən yan keçməmişdir. Monqollar hücum etdikləri əraziləri dağıdır, şəhər və kəndləri viran edirdi.

Monqolların dağıdıcı basqınları və 1235-ci ildə baş verən səkkiz bal gücündəki ikinci zəlzələ nəticəsində qədim Gəncə şəhərinin tarixi memarlıq abidələri dağılmışdır. Lakin zəlzədən qısa müddət sonra Gəncə şəhəri yenidən inkişafa doğru addımladı.

**Açar sözlər:** Gəncə, Arran bölgəsi, mədəniyyət mərkəzi, arxeoloji tədqiqatlar, memarlıq, sənətkarlıq.

## Giriş

Azərbaycanın yüksək tərəqqi etmiş ən qədim şəhərlərindən biri Gəncə şəhəridir. Bu diyar özünün memarlıq üslubu, gözəl tikililəri ilə seçilirdi. Əzəmətli çinarları ilə ad qazanmış Gəncə X əsrin ortalarında Salarilər dövlətinin hakimiyyəti altında olmuş, daha sonra isə Şəddadilər dövlətinin mərkəzi şəhəri olmuşdur. XI əsrdə Şəddadilər dövründə güclənmiş Gəncə Arranın ən nəhəng şəhəri kimi, ölkənin siyasi, iqtisadi və mədəni həyatında mühüm yeri olan şəhərə çevrilmişdir.

Dünya şöhrətli elm və incəsənət xadimlərinin yaşayıb yaratdığı bu şəhər Azərbaycanın mədəniyyətinin inkişafında misilsiz rol oynamışdır. XI-XIII əsrlər Gəncə şəhərinin inkişaf tarixində ən parlaq səhifələrdəndir.

Yazılı mənbə materiallarına və arxeoloji tədqiqatlara əsasən belə nəticəyə gəlmək olar ki, Orta əsrlərdə möhtəşəm bir şəhərə çevrilən Gəncə, həmin yerlərdə çox qədimlərdən mövcud olmuş eyni adlı yaşayış məskəni əsasında meydana gəlmişdir. Bu yaşayış məntəqəsi

mühüm ticarət yollarının üzərində yerləşdiyindən, məhsuldar qüvvələrin və ticarətin daha da inkişaf etməsi nəticəsində sonralar şəhərə çevrilmişdir [9, s.144].

XII-XIII əsrlərdə Gəncə təkcə müsəlman intibahının deyil, həm də xristian, alban intibahının mədəniyyət mərkəzi idi. Bu mədəniyyət nümayəndələrinin Gəncə şəhərində yaşayıb yaratmalarında Bərdə ədəbi mühitinin böyük təsiri olmuşdur [7, s. 38].

Orta əsrlər dövrü Gəncədə xalq ədəbiyyatı bir çox şaxələrdə inkişaf tapmışdı. Aşıq poeziyası, dastançılıq ənənəsi xüsusi əhəmiyyət kəsb edirdi.

Yazılı bədii ədəbiyyat Gəncə, Şamaxı, Təbriz, Marağa və digər şəhərlərdə fəaliyyət göstərən poetik məktəblərdə təmsil olunmuşdu. Bu dövr yazarları orta əsr müsəlman Şərqinin elmində qəbul olunmuş ənənəyə görə öz əsərlərini ərəb və ya fars dillərində yazırdılar.

XI əsr məşhur ilahiyyatçısı, tarixçisi, ədibi Əbu Nəsr ibn Hibbətullah ibn Makula Beyləqan, Bərdə və Gəncə şəhərlərində elmi məclislərdə iştirak etmişdi. O, Gəncə şəhərinə səfəri zamanı ziyarət etdiyi yerlər arasında Gəncə camesi və kitabxanasının adını xüsusi qeyd edir. Gəncə kitabxanasında İbn Makula həmin kitabxananın mühafizi naxçıvanlı Xodadat ibn Asim ən-Nəşəvi ilə görüşmüş və onun hədislərini dinləmişdi. XII əsrin tanınmış ilahiyyatçı alim Şeyx Əbu Tahir əs-Siləfi əl-İsfahani Azərbaycana səfərində olmuş, həmin şəhərlərin hafizləri, tanınmış şeyxləri ilə görüşərək fikir mübadiləsi aparmışdır. Əs-Siləfi Gəncədə olarkən bu şəhərə başqa müsəlman ölkələrində elmi səfərə gəlmiş bir çox alimlərlə də görüşmüş, fikir mübadiləsi aparmışdır. O, “Mucəm əs-Səfər” əsərində Gəncə və onun Nizamiyyə mədrəsəsi haqqında məlumat verir, qazı Əbu Abdulla Məhəmməd ibn Əli ibn Məhəmməd ət-Təbərinin müdərris vəzifəsində çalışır [3, s. 177].

Şeyx əs-Siləfinin “Mucəm əs-Səfər” əsərində Arran bölgəsinin mədəni həyatı ilə bağlı qiymətli məlumatlar vardır.

Şirvan, Gəncə, Naxçıvan, Dərbənd, Səlmas kimi mədəniyyət mərkəzlərinə səfər etmiş əs-Siləfi, bu bölgələrdəki kitabxana, məscid, mədrəsə və hədis evlərində yerli alimlərlə birgə diskussiyalarda iştirak etmiş, yerli alimlərlə fikir mübadiləsi aparmış, onların haqqında bilgi vermiş, onlara hədis öyrətmiş, özü isə yerli alimlərdən hədis öyrənmişdir. O dövrdə Azərbaycanın mədəniyyət mərkəzlərindən biri olan Gəncə şəhəri sufi şeyxlərinin hədis məclislərində toplaşıb fikir mübadiləsi apardıqları elm mərkəzlərindən idi. İbn Xəllikan onun Gəncə ziyarəti haqqında məlumat verərək bildirir ki, hədis toplamaq niyyəti bir çox şəhərlərə, o cümlədən Gəncəyə səyahət etmiş əs-Siləfi orada çoxsaylı hafizlər, zamanəsinin tanınmış şeyxləri ilə görüşmüşdü. Əs-Siləfi kimi alim şeyxlərin Gəncə ziyarətində yerli alimlərlə görüşərək elmi mübadilə aparması yerli mədəni mühitin abu havasından xəbər verir [4, s. 28-29].

Əbu Nəsr ibn Hibbətullah ibn Makula və Əbu Tahir əs-Siləfi kimi sufi alimlərin Gəncə şəhərini ziyarət etməsi və onların yerli sakinlərlə fikir mübadilələri burada yerli sufi alimlərin olmasını təsdiqləyir.

Bu şəhər ziyalılar diyarı hesab oluna bilər. Dövrün dahi şəxsiyyətləri, Əbül-üla Gəncəvi, Nizami Gəncəvi, Məhsəti Gəncəvi, Tacəddin Katibi, Qəvam Mütərəzzi, Şətərli Yusif əs-Sirafi yalnız Azərbaycanda deyil, bütün Şərq aləmində tanınmışdılar.

Bəhs olunan dövrün mədəniyyətinin zirvəsi Şeyx Nizaminin (1141-1209) yaradıcılığı ilə bağlıdır. Dahi şair və mütəfəkkir təkcə ədəbiyyat sahəsində deyil, tarix və ritorika, astronomiya, fəlsəfə, kimya, memarlıq, rəssamlıq, coğrafiya və təbabət sahəsində elmi biliklərə yiyələnmişdi. Bəşəriyyətə "Xəmsə"ni bəxş edən filosof şair öz yaradıcılığında ictimai-siyasi, etik, fəlsəfi və digər mövzulara toxunmuşdur.

Nizami əsərlərini ana dilində yazmasa da, həmişə vətəni Azərbaycana və doğma xalqına cani-qəlbdən bağlı olmuş, həmişə bir azərbaycanlı kimi düşünmüş, öz milli mənsubiyyəti, xalqı, onun tarixi və adət-ənənələri ilə qürur duymuş, əsərlərində çoxlu türk mənşəli sözlər, xalq ifadələri işlətmiş, Azərbaycan xalq məsəlləri, atalar sözlərinə müraciətlə fars sələflərindən fərqlənmişdir.

"...XI-XII əsrlər Azərbaycan poeziya məktəbinin poetik özəlliklərindən biri də fars dilində yazılmış əsərlərdə türk sözlərinin işlənməsi olmuşdur" [11, s. 163].

Onun əsərlərini oxuduqca burada ayrı-ayrı sənət sahələrinin inkişafı, maddi-mədəniyyət nümunələri və hətta sənətkarlar haqqında da müxtəlif məlumatlar əldə etmək olur.

Nizami və müasirlərinin əsərlərinə əsasən ədəbi təfəkkürdəki intibahı əsas alaraq şairin yaşadığı XII əsri Azərbaycan mədəniyyətinin qızıl dövrü adlandırmaq mümkündür.

Şairin həyat və yaradıcılığı Gəncə şəhəri ilə qırılmaz surətdə bağlı idi. Vətənpərvər şair əsərlərində gəncəli olması ilə iftixar etmiş, "Xəmsə"yə daxil olan ilk böyük əsəri olan "Sirlər xəzinəsi"ndə Gəncəni sehrkarlar yurdu Babil ilə müqayisə etmişdi.

Gəncə - Harut sehirli Babil deyil, bəs nədir?
Ürəyim - ulduzlara nur saçan bir Zöhrədir.
Zöhrətəki ucalıb Mizan bürcünə Gəncə,
Onu belə ucaldan ülvi sözümdür, məncə.

Nizami təhsilini Gəncədə almış, burada yaşamış və vəfatından sonra da burada dəfn olunmuşdur. Onun vəfat tarixi dəqiq məlum deyildir. Bir çox müəlliflərin fikrincə Nizami Gəncəvinin vəfat tarixi 1180, 1190 və ya 1195-ci ilə təsadüf edir. Ələsgərzadəyə görə isə şair təxminən 1208-1209-cu illərdə dünyasını dəyişmişdir.

Şairin məzarı gəncəlilərin ziyarətgahlarından birinə çevrilib. Onun məzarı üzərində ucalan türbə XIII əsrin əvvəllərinə aiddir. O zamandan bəri bu memarlıq nümunəsi bir neçə dəfə bərpa olunmuşdu.

Mənbələrin məlumatına əsasən Azərbaycanın bir sıra rayonlarında dahi sənətkarın adını daşıyan kəndlər mövcuddur. Gəncə ətrafında Şıx düzü də Şeyx Nizaminin adı ilə bağlıdır.

Səlcuq hökmdarı Sultan Səncər (1118-1157) sarayında yaşayan məşhur Azərbaycan şairəsi Məhsətinin əsli Gəncədən idi. Azərbaycan tarixçisi A.A.Bakıxanov Məhsəti haqqında aşağıdakıları yazır: "O, poeziyada incə zövqü ilə seçilirdi. Onun şeirlərindən bir çoxu Atəşgahda yerləşdirilmişdir. Məhsəti istedadlı şairə idi. Onun "rübai" şeirləri, tədqiqatçıların qeyd etdiyi kimi, realizmlə doludur" [7, s. 39].

Bir çox tədqiqatçıların fikrincə, Məhsəti Gəncəvinin əsl adı Rəziyyə olmuşdur. Məhsəti ("Məh"-böyük, "səti"-xanım) isə şairənin təxəllüsü olmuşdur.

Şirvanşah II Mənuçöhrün sarayında cəmlənmiş şairlərin başında Nizaməddin Əbül-Üla Gəncəvi dururdu. O, "Ustad əş-şüara" (Şairlərin başçısı) adı ilə tanınırdı. Əbül-Üla Gəncəvi ədəbi məktəb yaratmış şəxsiyyətlərdən biri idi. Onun əsərləri tam şəkildə bizə çatmamış, yalnız müxtəlif əsərlərin içərisində müəyyən hissələrə rast gəlinmişdir.

Şirvanşahlar dövləti ilə yanaşı, Eldənizlər dövlətinin dövründə də, şairlər və alimlər himayə olunurdu. Bu dövrdə Gəncə şəhəri bir çox alimlərin və şairlərin vətəni olmuşdur. Atabəy Qızıl Arslanın sarayında həmin dövrün böyük şairi 1193-cü ildə vəfat etmiş Mücirəddin Beyləqani yaşayırdı.

Şərqin mədəniyyət mərkəzi olan Gəncə şəhərinin əhalisi bir neçə mərtəbəli və özünəməxsus memarlığı ilə seçilən evlər tikmiş, bağlar salmışlar. Gəncə ustalarının hazırladıqları gil qablar üzərində olan zərif həndəsi naxışlar, təsvirlər göz oxşayır.

Gəncə və onun ətraf ərazilərində dövrün görkəmli şəxsiyyətlərin (şairlərin, alimlərin və digər şəxsiyyətlərin) xatirəsini əbədiləşdirmək üçün türbələr tikilmişdir. Orta əsr Gəncə türbələri öz memarlıq quruluşuna görə fərqlənirdi. Bu türbələr küpşəkilli və çoxbucaqlı formadadırlar. Türbələrin tikintisində bir qayda olaraq ağac materiallardan istifadə edilməmişdir və türbə tağlarına nəbati, həndəsi naxışlar həkk edilmişdir. Bu türbələr islam dininin qəbul olunmasından sonrakı dövrə aid edilir. Türbələrdə insan və ya heyvan təsvirləri yoxdur. Bunu İslam ənənələri ilə bağlamaq olar. Dağıntılara məruz qalmış orta əsr türbələrinin bəzilərinin kitabələri də bizə gəlib çatmayıb.

XI-XII əsrlərdə Gəncə, Təbriz və Ərdəbil metalişləmə sənətinin, o cümlədən də dəmirçiliyin iri mərkəzləri idi. Orta əsrlərdə Azərbaycanda dəmirçilik sənətinin səviyyəsini müəyyənləşdirmək üçün dəmirçi İbrahim Osman oğlunun 1063-cü ildə hazırladığı Gəncə darvazası mühüm əhəmiyyətə malikdir. Darvazanın çərçivəsi döymə üsulu ilə hazırlanaraq, dəmir qollar çərçivəyə köndələn vəziyyətdə bərkidilmişdir. Darvaza üzərində olan yazıdan bəlli olur ki, onun hazırlanmasında dövrün məlum texniki üsullarından istifadə edilmişdir.

Müxtəlif silahlara tələbat, eləcə də Gəncə həndəvərlərində dəmir və mis filizi yataqlarının olması silah istehsalının buradakı inkişafına şərait yaratmışdı. İbn əl-Əsir yazır ki, monqollar birinci basqın zamanı Gəncəyə yaxınlaşarkən "öyrəndilər ki, Gəncənin çoxlu cəsur sakinləri var, onların silahları çoxdur..." .

Həmdullah Qəzvini yazdığı kimi "Gəncə Arran şəhərlərinin anası olmuş", sənətkarlıq, ticarət, mədəniyyət və inzibati mərkəz kimi çox tez inkişaf etmişdir. Gəncə Yaxın və Orta

Şərqin məşhur şəhərləri olan İsfahan, Mərv, Tus və Ağsaray kimi görkəmli və nemətli olmuşdur [10; s.143].

Ümumiyyətlə, XI-XII əsrlərdə Gəncə həm müsəlman, həm də xristian Alban intibah mədəniyyətinin mərkəzi olmuşdur.

Qədim Gəncədə zərgərlik, şüşə istehsalı, ağacişləmə və daşyonma sənətləri geniş intişar tapmışdır. Müxtəlif çeşidli və al-əlvan rəngli xalılar, xalçalar toxucuların zərif barmaqlarının inciləri idi. Lakin gözəl zövqlə hazırlanan rəngli ipək parçalar Yaxın və Orta Şərqdə şöhrətlənirdi. Zəkəriyyə Qəzvini yazır ki, Gəncənin ipəyi başqa ölkələrin ipəyindən keyfiyyətli, xeyli qəşəng və üstün idi... [1, s. 79].

XI əsrdə Məlik şahın vəziri Nizamülmülk yazır ki, Gəncə ipəyindən toxunan paltarlar Səlcuq imperiyasında yüksək rütbəli hərbi adamlara hədiyyə kimi verilirdi. Bəzi müəlliflər Gəncəni Şərqin ən məşhur ticarət mərkəzi hesab edirdilər [2, s. 192].

Bu dövrün parçaları üzərindəki naxışlar «metal» xasiyyəti daşımır, yəni naxışlar əvvəlki dövrlərə aid olan bərklikdən və ağırlıqdan uzaqlaşmışlar. Bu da onunla izah olunur ki, o dövrün ustaları əvvəlki dövrlərdən fərqlənərək, daha zərif parça istehsal edir və bu parça üzərindəki naxışları bir sapla deyil, bir neçə rəngli sapla bəzəməyə başlayırlar [5, s. 11].

Bu yerləri gözü ilə görən, qəlbi ilə duyan XIII yüzilliyin məşhur səyyahı Zəkəriyyə Qəzvini görün nə deyir?! “Gəncə Arranın qədim istehkam şəhəridir. Müsəlman aləminin sonuncu keşik məntəqəsi sayılır. Şəhərin özündə kanal vardır. Ona iki yolla enmək olar. Biri “Qəbiristanlıq qapısı” adı ilə məşhurdur. İkincisi isə “Bərdə qapısı” adlanır. Əhali suyu Qəbiristanlıq qapısından götürür və ipəyi suda yuyurlar. Onda əla ipək alınır və onun qiyməti yüksək olur... ” [6, s. 34].

Gəncədə sənətkarlar “Əxi” adı altında təşkilatlarda birləşirdilər.Ərəb sözü olan “əxi”, azərbaycanca “qardaş”, “qardaşlıq təşkilatı” mənasına gəlir. Bu təşkilatın rəhbərləri eyni zamanda, “Comərd” adlandırılırdı. Bir sıra tədqiqatçıların fikirlərinə görə Gəncə şəhərində yerləşən “Comərdi-Qəssab” türbəsinin bu təşkilatın rəhbərlərindən biri ilə bağlı olmasını qeyd edirlər. Cənazəsi gizlin şəkildə dəfn olunduğu üçün adı məxfi saxlanılmış və “Comərd” kimi qeyd edilmişdir.

Əxilik XII-XIII əsrlərdə şəhərin sosial həyatında mühüm rol oynamışdı. Bu təşkilat, həm də sənətkarların hüquqlarının müdafiəsinə yönəlmişdi. Onların əsas məqsədlərindən biri istehsalatı sənətkarların özləri arasında tənzimləmək idi.

Orta əsr Arran keramika məktəbi, xüsusilə onun Gəncə və Şəmkir mərkəzləri üçün XI-XIII əsrlərdə yastı oturacağı, uzunsov və ya armudvari gövdəsi, dar boğazı, tək qulpu olan bardaqların qırmızı boya ilə günəşi xatırladan naxışla bəzədilməsi geniş tətbiq edilirdi. Boğazdan çiynə keçiddə qırmızı boya ilə dairə, həmin dairədən gövdənin aşağısına doğru burulan zolaqlar çəkilirdi. Bardağa üstdən baxdıqda boyalı bəzək hərəkətdə olan günəş təsvirini xatırladır [3, s. 125].

XI əsr coğrafiyaşünası İbn Xordadbeh Arranda qabların hazırlanmasında ağ gildən istifadə edildiyi haqqında məlumat vermişdir. XI-XIII əsrin əvvəllərində Gəncədə dulusçuluq

sənətkarlığın əsas sahələrindən biri kimi inkişaf tapmışdı. Yeni növ qabların hazırlanma texnikası bunu sübut edir.

Şirli saxsı qabların oturacağının altına möhür vurulması səciyyəvi hal almışdı. Qabların üzərində heyvan və quş şəkilləri təsvir olunmuşdur. Bəzi qablar da vardır ki, onların üzərində heç bir təsvirə rast gəlmək olmur. Belə qablara Gəncə və onun ətrafında aparılan arxeoloji tədqiqatlar zamanı rastlanmışdır.

Əldə olunan arxeoloji materiallar XI-XIII əsrin əvvəllərində Gəncə və onun ətraf ərazilərində metalişləmə sənətinin inkişaf etdiyini göstərir. Bütün bunlar metaldan hazırlanmış məhsulların çeşidlərinin çoxalmasına, keyfiyyətinin yaxşılaşmasına səbəb olur. XI-XIII əsrin əvvəllərinə aid təbəqədə metaldan yeni texniki üsulla hazırlanmış müxtəlif çeşidli əşyalara, istehsalat tullantılarına və s. daha çox təsadüf olunur [8, s. 196].

XI-XIII əsrlərdə zəngin arxitektura abidələri ilə seçilən şəhərlərdən biri məhz Gəncə idi. Təəssüflər olsun ki, dəfələrlə təbii fəlakətlər və yadelli basqınları ilə üzləşən şəhərin memarlıq abidələrinin əksəriyyəti bu günümüzə gəlib çatmamışdır. XIII əsrin sonu- XIV əsrin əvvəllərindən başlayaraq  Azərbaycanda mədəniyyət yenidən inkişafa doğru irəliləmişdir. Bu zaman Azərbaycanın digər şəhərləri kimi Gəncə şəhərində də inkişaf nəzərə çarpır. Bu dövrdə bir çox memarlıq abidələri inşa olunmuşdur. Çox güman ki, VIII əsrə aid etdiyimiz İmamzadə türbəsinin 1139-cu il zəlzələsindən sonra qalması mümkün deyildi. Çünki zəlzələdən sonra heç bir bina və ya abidələr salamat gəlib çatmamışdır. Daha sonra isə 1235-ci ildəki 8 bal gücündə baş verən zəlzələ Gəncədə XIII əsrə aid bütün abidələrin dağılmasına səbəb oluşdur. Məhz buna görə də türbənin mərkəz hissəsinin inşasını  XIII əsrin sonu-XIV əsrin əvvəllərinə aid etmək olar.

**Nəticə**

Nəticə olaraq qeyd etməliyik ki, Şəddadilərin mərkəzi şəhəri olan Gəncə şəhəri XI əsrdə Arranın nəhəng şəhərlərindən olmuşdur. Bu dövrdə Gəncə ölkənin siyasi, iqtisadi və mədəni həyatında mühüm rol oynayırdı. Şəhər ticarət və sənətkarlıq mərkəzi kimi məşhurlaşmışdı.

Gəncədə dahi şəxsiyyətlər – Nizami Gəncəvi, Əbül-üla Gəncəvi, Qivami Gəncəvi, Məhsəti Gəncəvi və alban xristian mədəniyyətinin nümayəndələri olan David Alavik, Mxitar Qoş, Kirakos Gəncəli və digər şəxsiyyətlər yaşayıb yaratmışlar.

Gəncədə sənətin müxtəlif sahələri, eyni zamanda memarlıq, incəsənət də inkişaf etmişdi. Təsadüfi deyil ki, müəllifi bəlli olmayan "Əcaib əd-dünya" əsərində Gəncə varlı və inkişaf etmiş şəhər kimi qeyd olunur. Əsərdə şəhərin hündür və möhkəm qala divarları haqqında da məlumatlar yer almışdı. Sürətli inkişaf edən Gəncə şəhərində XI-XIII əsrlərdə bürclər, məqbərə, qala divarları, məscidlər, mədrəsələr, karvansaralar, bazar və s. inşa edilmişdir.

Ümumiyyətlə XI-XIII əsrlərdə Gəncə şəhəri möhtəşəm istehkamlara malik bir şəhər olmuşdur. Zəkəriyyə əl-Qəzvininin sözləri ilə ifadə etsək,  müsəlman aləminin sərhədində yerləşən Gəncə şəhəri öz istehkamları və əhalisinin cəsurluğuna görə seçilirdi.

Bu baxımdan Azərbaycan tarixində önəmli yer tutmuş Gəncə şəhərinin müxtəlif dövrlərinin hərtərəfli öyrənilməsi zəruridir.

## Ədəbiyyat


1. Bünyadov, T. (1986). *Mərd qalalar, sərt qayala.,* Bakı, 139 s.
2. Bünyadov , T. (1960). *Azərbaycan arxeologiyası oçerkləri.* Bakı, 236 s.
3. Dostiyev, T. (2016). *Azərbaycanın orta əsr şəhərləri (IX–XIII əsrin əvvəlləri).* Dərs vəsaiti, Bakı, 200 s.
4. Əliyeva, N. (2016). *Şeyx əs-Siləfi və Azərbaycan.* Bakı, 160 s.
5. Əfəndiyev R. (1960). *Azərbaycanın maddi-mədəniyyət nümunələri (geyimlər).* Bakı, 35 s.
6. "Gəncə şəhərinin tarixi". (2004). *Elmi-praktik konfransın materialları (sentyabr-oktyabr).* Bakı, 258 s.
7. İsayev, Ə. (2008). *Gəncə və gəncəlilər.* Bakı, 596 s.
8. Məmmədov, A. (2014). *Qədim Gəncə (arxeoloji tədqiqatlar əsasında).* Bakı, 176 s.
9. Məmmədov, A. (2008). *Gəncə və onun ətrafının tarixi-arxeoloji tədqiqi (Ən qədim zamanlardan-XIX əsrə qədər).* Gəncə, 297 s.
10. Məmmədov, A. (2008). *Arxeologiya və etnoqrafiya (Dərslik).* Gəncə.
11. Nəcəfzadə, Ə. (2019). *Nizaminin türklüyü və türklüyə münasibəti Azərbaycan nizamişünaslığında (Monoqrafiya).* Bakı: Elm və təhsil, 224 s.


## CULTURAL RISE IN GANJA IN XI-XIII CENTURIES

**Turkan Ahmadova**
Lankaran State University, Lankaran, Azerbaijan

Ganja is one of the medieval cities, the cultural center of Azerbaijan. In the XI-XIII centuries, the city was considered one of the most prominent cities in Azerbaijan and the Middle East. This period is considered the heyday of Ganja culture.

The name Ganja, translated from Persian, meant a place where treasures and riches were kept. This city, valuable as a treasure, presented the world literature with Abul-ul Ganjavi, Givami Ganjavi, Nizami Ganjavi, Mahsati Ganjavi, Shatarli Yusif al-Sirafi, and other geniuses.

The city of Ganja, which developed significantly in the XII-XIII centuries, was distinguished by the development of trade and crafts. The handicraft population of Ganja was united into workshops. Their main goal was to oppose the city authorities, as well as to regulate production among artisans. Of these artistic associations, the "brotherhoods" in the west and the "axis" in the east occupied an important place. The Axis organizations played an important role in the life of the medieval cities of the East.

The city of Ganja, shaken by devastating earthquakes and foreign invasions throughout history, has managed to preserve its special architectural style and mystery. The architectural monuments that have survived to this day testify to the style of work of the skilled craftsmen of Ganja.
The city of Ganja, with its ancient and rich history, was distinguished by magnificent defensive structures. However, as a result of devastating earthquakes in Azerbaijan, not a single building of the XII century in Ganja has been preserved.
The consequences of the Mongol invasions, which began at the beginning of the 13th century, did not go unnoticed in Ganja. The Mongols destroyed the territories they attacked, destroying cities and villages.
As a result of the devastating Mongol invasions and the second eight-magnitude earthquake in 1235, the historical and architectural monuments of the ancient city of Ganja were destroyed. However, soon after the earthquake, the city of Ganja began to develop again.
**Keywords:** Ganja, Arran region, cultural center, archaeological research, architecture, crafts.

## КУЛЬТУРНЫЙ ПОДЪЕМ В ГЯНДЖЕ В XI-XIII ВЕКАХ

**Тюркан Ахмедова**
Лянкяранский государственный университет, Лянкярань, Азербайджан

Гянджа – один из средневековых городов, культурный центр Азербайджана. В XI-XIII веках город считался одним из самых выдающихся городов не только Азербайджана, но и Ближнего Востока. Этот период считается расцветом культуры Гянджи.
Название Гянджа в переводе с персидского означало место, где хранились сокровища и богатства. Этот ценный, как сокровище, город подарил мировой литературе Абул-ула Гянджеви, Гивами Гянджеви, Низами Гянджеви, Махсати Гянджеви, Шатарли Юсиф ас-Сирафи и других гениев.
Город Гянджа, значительно развившийся в XII-XIII веках, отличался развитием торговли и ремесел. Ремесленное население Гянджи было объединено в мастерские. Их основной целью было противодействие городским властям, а также регулирование производства среди ремесленников. Из этих художественных объединений важное место занимали «братства» на западе и «ахисы» на востоке. Организации “Ахи” играли важную роль в жизни средневековых городов Востока.
Город Гянджа, на протяжении всей истории сотрясаемый разрушительными землетрясениями и иноземными нашествиями, сумел сохранить свой особый архитектурный стиль и таинственность. Сохранившиеся до наших дней архитектурные памятники свидетельствуют о стиле работы искусных мастеров Гянджи.
Город Гянджа со своей древней и богатой историей отличался великолепными оборонительными сооружениями. Однако в результате разрушительных землетрясений в Азербайджане не сохранилось ни одного здания XII века в Гяндже.
Последствия монгольских нашествий, начавшихся в начале XIII века, не остались незамеченными в Гяндже. Монголы разрушали территории, на которые нападали, уничтожая города и села.
В результате опустошительных монгольских нашествий и второго восьмибалльного землетрясения 1235 года исторические и архитектурные памятники древнего города Гянджи были разрушены. Однако вскоре после землетрясения город Гянджа снова начал развиваться.

**Ключевые слова:** Гянджа, Арранский район, культурный центр, археологические исследования, архитектура, ремесла.

Daxil oldu: 01.03.2022; Çapa qəbul edildi: 30.05.2022; Çap edildi: 20.06.2022

# QƏDİM İNGİLİS POEZİYASININ DİL VƏ ÜSLUB XÜSUSİYYƏTLƏRİ

**Lalə Əliyeva**
Azərbaycan Turizm və Menecment Universiteti, Bakı, Azərbaycan
e-mail: lalaaliyeva830@mail.ru

**Xülasə**. Bu araşdırma qədim ingilis poeziyasının dil və üslub xüsusiyyətlərinin araşdırılmasına həsr olunub. İnsanlıq tarixi qədər qədim hesab edilən dil və ədəbiyyat müasir dünyada da müxtəlif sahələrdə müşahidə olunur və bu barədə məqalədə məlumat verilir. Məqalədə ingilis ədəbiyyatının mərhələləri, bunlar on mərhələyə ayrılmışdır, daha sonra qədim ingilis ədəbiyyatı, bu dönəmin özünəməxsus nümunələri və əsasən, "Beovulf" dastanı təhlil olunur və onun əsasında qədim ingilis poeziyasındakı üslub xüsusiyyətləri müəyyənləşdirilir. Məqalə giriş, iki altbaşlıq və nəticədən ibarətdir. Araşdırma nəticəsində hasil olan qənaət ondan ibarətdir ki, qədim ingilis ədəbiyyatı şifahi xalq ədəbiyyatının bugünkü ədəbi zənginlik üzərindəki danılmaz rolunu öyrənmək baxımından maraqlı bir nümunə təşkil edir və yaxın gələcəkdə də onun daha dərindən araşdırılması məqsədəuyğundur.
**Açar sözlər:** ingilis poeziyası, qədim dövr, keltlər, Beovulf, ədəbiyyat, üslub

## Giriş

Dil və ədəbiyyat insanlıq tarixi qədər qədim, bir o qədər də müasirdir. Onu hər yerdə müşahidə etmək mümkündür: kitablarda, videolarda, televiziyalarda, radiolarda, musiqilərdə, kompüterlərdə, qəzetlərdə, ümumilikdə, hekayə danışan və ya obrazın yaradıldığı bütün media vasitələrində. Ədəbiyyat söz və nitqə söykənən bir sənət növüdür. İstənilən mədəniyyətdə ilk ədəbiyyat nümunələri şifahi xalq ədəbiyyatı hesab olunur. Homerin klassik yunan dastanları, Mesopotamiyalıların Gilqameşin dastanları və və s. bir çox şifahi xalq poeziyası nümunələri nəsildən-nəslə ötürülmüş və günümüzədək gəlib çıxmışdır.

İngilisdilli şifahi xalq ədəbiyyatının ilk təzahürləri üç mövzu ətrafında cəmlənmişdi: din, müharibə və gündəlik həyat. Bu üç sual bir çox əsərlərin əsas mövzusunu təşkil edirdi [1, s.40]. Luberinqə [4] görə, ingilis dilində ən erkən ədəbiyyat nümunləri insanları əylənmək üçün bir araya gətirən şifahi dastanların davamı kimi yazılmışdır. Bu hekayələrdə tez-tez cəsur cəngavərlərin, gözəl qadınların, qorxunc canavarların və sirli ruhların mifik obrazları yaradılırdı. Əsrlər boyu dildən keçən bu narrativlər ingilis ədəbiyyatının təməlində dayanır.

Böyük Britaniya adalarının yerli xalqları dedikdə ağlımıza anqlo-saksonlar (german tayfaları) gəlir, lakin əslində onlar tamamilə fərqli bir xalq olan keltlərdən təşkil olunmuşdu. Yazılı nümunələrlə təsdiq olunmasa da, kelt dili İrlandiya, Uels, Kornuoll, Şotlandiya və Fransanın Brittani bölgəsi və Böyük Britaniyanın bəzi hissələrində bu gün də danışılan ingilisdilli ləhcəyə bənzəyir. Bu dil sakson dilindən fərqli idi [5, s. 20]. Fletçerə [2] görə, indiki ingilis xalqı tədricən Böyük Britaniya adasını işğal edən və ya fəth edən bir neçə fərqli xalqdan törəmişdi. Bu xalqların ən qədimləri sonradan iki qola bölünən kelt ailəsinə aiddir: qoidellər və ya qaellər. Onlar adanın indi Şotlandiya kimi tanınan şimal hissəsində məskunlaşmış Şotlandiya dağlılarının əcdadlarıdır. Sonrakı dövrdə ingilis ədəbiyyatına öz təsirlərini göstərən bu xalqların hazırkı nəsilləri İngiltərə və Uelsdə yaşayırdılar. Onların bir

çoxu "barbar xalqları"nda olduğu kimi bir çox qəbilələrə bölünür və tez-tez bir-biri ilə döyüşürdü. İngiltərə daha sonra anqlo-saksonlar tərəfindən fəth edildi və vahid ədəbiyyatın formalaşması prosesi başladı.

Qədim ingilis poeziyasının xarakteristik xüsusiyyətlərinin araşdırıldığı bu məqalədə, əsasən, türk araşdırmaçısı və ingilis ədəbiyyatının ən görkəmli tədqiqatçılarından biri hesab olunan Mina xanım Urqanın təhlillərindən istifadə olunur. Bundan əlavə, qədim ingilis ədəbiyyatı ilə bağlı müvafiq araşdırmalar aparmış Karter, Fletçer, Luberinq və s. kimi müəlliflərin mülahizələri də təhlil olunur.

**İngilis poeziyasının əsas tarixi inkişaf mərhələləri**

İngilis ədəbiyyatı ilə bağlı geniş araşdırmalar aparan və bir çox kitablar yazan görkəmli türk araşdırmaçısı M.Urqan [5] ingilis ədəbiyyatı tarixini on dövrə bölüb. Dövrlərin başlanğıcı və sonu müəyyən edilərkən, həmin dövrdə yaranan hərəkatlar, sənətkarlar, mövcud olan dövlət formaları, idarəçilik, siyasi ab-hava və s. kimi faktorlar nəzərə alınmışdır.

1. Qədim ingilis ədəbiyyatı dövrü: Şifahi ədəbiyyatdan yazılı ədəbiyyata keçidlə təxminən VIII əsrdə başlayır və ingilis tarixində dönüş nöqtəsi olan Norman istilası (1066) dönəminə qədər davam edir. Bu dövr poeziyanın ilk dəfə yarandığı dönəmdir.

2. Orta ingilis ədəbiyyatı: Bütün orta əsrləri əhatə edir və XV əsrə qədər davam edir.

3. Renessans və ya Yelizaveta dövrü: 1558-1603-cü illərdə hökmranlıq edən Kraliça Yelizavetanın şərəfinə bu cür adlandırılan bu dönəmin son qırx ili Yakobin dövrü adlanır, çünki Elizabetin ölümündən sonra Şotlandiya kralı Ceykab taxta çıxmışdı və onun adının latın versiyası Yakobdur.

4. Millətlər birliyi dövrü (Commonwealth): 1642-1660-cı illəri əhatə edir.

5. Restavrasiya dövrü: Respublikaçılar tərəfindən edam edilən I Karlın oğlu II Karlın taxta çıxması, yəni monarxiyanın bərpası ilə başlayır və XVIII əsrin əvvəllərinə qədər davam edir.

6. Neoklassik dövr: XVIII əsrin əvvəlindən təxminən 1770-ci ilə qədər davam edir. Kraliça Anna 1702-1714-cü illərdə hökm sürdüyü üçün bu dövrün başlanğıcı Kraliça Anna dövrü də adlanır. Roma imperatoru Avqustun dövründə latın ədəbiyyatının ən məşhur adamları yaşamışdı, onlardan nümunə götürən ingilis şair və yazıçıları özlərini Romanın klassik yazıçılarına bənzətmiş və "Augustus" sözünü mənimsəmişdilər, buna görə də bu dövrə Avqustus dövrü də deyilir.

7. Pre-romantik dövr: XVIII əsrin son otuz ilini əhatə edən və romantizmə keçidi hazırlayan preromantik dövr özünəməxsus cizgiləri ilə seçilirdi.

8. Romantizm dövrü: 1798-ci ildə Uordsvort və Kolericin "Lirik balladalar"ın nəşri ilə başlayır və demək olar ki, XIX əsrin ortalarına qədər davam edir.

9. Viktoriya dönəmi: adını yenidən kraliçanın adından alan bu dövr ingilis ədəbiyyatının ən özünəməxsus dönəmi hesab olunur. Kraliça Viktoriya 1837-ci ildə taxta çıxdığı və 1901-ci ildə vəfat etdiyi üçün bu dövr XX əsrin əvvəllərinə qədər davam edir.

10. XX əsr və sonrakı dönəmin ədəbiyyatı.

**Qədim ingilis poeziyası: özünəməxsusluqlar və üslub xüsusiyyətləri**

Tədqiqatçılar qədim ingilis dövrü ədəbiyyatının əksər yazıçı və şairləri haqqında cüzi məlumatlara malikdirlər. Onların bu dövrlə bağlı əldə etdikləri məlumatların əksəriyyəti o dövrdən günümüzə qədər gəlib çatmış fraqmentar əlyazmalara əsaslanır [4, s. 33].

İngilis ədəbiyyatının ən erkən nümunələri bu gün danışılan ingilis dilinin mənbəyi olan anglo-sakson dilində yazılmışdır. Bu zaman qədim ingilis dilinin yalnız sözləri və qrammatik qaydaları deyil, hətta onun bəzi hərfləri də latın əlifbasının hərflərindən fərqlənən german əlifbasına bənzəyirdi [5, s.47].

Digər tərəfdən, qədim ingilis dili 5-ci əsrdən bəri davamlı olaraq keltlərə hücum edən və tezliklə İngiltərəni işğal edəcək anqlon, sakson və yut adlı german tayfalarının dillərinin qarışması nəticəsində formalaşmışdı. Bir çox qədim ingiliscə nümunələr İngiltərədən çox, almanların ədəbi nümunələri təsiri bağışlayır, çünki keltləri şimaldan və qərbdən Kornuola, Uels, İrlandiya və Şotlandiyaya qovmuş bu german tayfaları özləri ilə yaratdıqları şifahi xalq ədəbiyyatını da gətirmişdilər. Ona görə də bu şeirlərdə təsvir olunan hadisələr Britaniyada yox, məhz Avropada cərəyan edir [5, s.49].

Qədim ingilis poeziyasının əksər nümunələri X əsrin sonu və XI əsrin əvvəllərinə aid dörd əlyazmadan ibarətdir. Bu əlyazmalar aşağıdakılardır:

1. Beovulf əlyazması (Britaniya kitabxanası): Beovulf, Cudit və digər üç nəsr nümunələrini ehtiva edir;
2. Ekseter kitabı (Exeter Cathedral): Sözlər, tapmacalar, didaktik poeziya və dini hekayələr toplusudur;
3. Yunius əlyazması (Bodlean kitabxanası, Oksford): Kaedmon əlyazması kimi də tanınır, məzmunu artıq Kaedmona aid edilməsə də, Bibliya fraqmentlərini ehtiva edir;
4. Verçelli kitabı (İtaliyanın Verçelli şəhərindəki kitabxanasında tapılıb). Burada müqəddəslərin həyatı və nikahları, qısa dini ayələr və s. ehtiva olunur.

Bu kitablara anqlo-sakson xronikasından tarixi şeirlər, həmçinin mifik, didaktik, elegik və qəhrəmanlıq şeirləri daxildir. Bu əlyazmalar kağıza köçürülməzdən əvvəl daş və ya metal ilə işlənmişdir [4, s.22].

Qədim ingiliscə şeirləri hansı şairlərin hansı tarixlərdə yazdığı məlum deyil. “Gleeman” və ya “Scop” adlanan ozanlar tərəfindən oxunan bu bardlar özlərinin və ya başqalarının şeirlərini musiqi alətinin müşayiəti ilə oxuyurmuş kimi ifa edilirmiş. Müasir ingilis dilində “sevinc” və ya “əyləncəli” mənasını verən “glee” sözü “musiqi” mənasını verdiyi üçün “gleeman” terminini “music man” və ya “music maker” (ozan) kimi də tərcümə oluna bilər. Qədim ingilis dilində “scop” sözü isə şeir və ya “bard” mənasında istifadə olunurdu [5, s. 52].

Qədim ingilis poeziyasında qafiyə demək olar ki, istifadə olunmur. Bununla birlikdə, alliterasiya və assonans tez-tez istifadə olunur. Alliterasiya, məsələn, “swift swallow flying to the south”da olduğu kimi “s” hərfinin simlə təkrarlanmasını ehtiva edir.

Assonans saitlərin bir-biri ilə birləşmədiyi yarımqafiyə mənasına gəlir. Qədim ingilislər şeirlərini təkcə assonanslarla deyil, həm də iki fərqli sözün birləşməsindən yaranan oxşarlıqlarla “bəzəyirdilər”. Məsələn, “sword” əvəzinə “battle-lightning”, “darkness” əvəzinə “dark-helmet”, “body” yerinə “bone house”, “qan” əvəzinə “war-sweat”, “grave” əvəzinə “death-house”, “eyes” əvəzinə “head-jewels”, “sea” əvəzinə “whale-path” kimi ifadələrdən istifadə edirdilər və bu da onların metaforik-bədii təxəyyüllərinin inkişaf etdiyini göstərir [5, s. 39].

Qədim ingilis poeziyasında şeirlərin ruhu qaranlıq və “qəddar”dır. Bu dönəmin şeirlərində dəniz döyüşləri ön plana çıxır [2, s. 14]. Urqan [5, s. 56] qeyd edir ki, bu durum başadüşüləndir, çünki germanlar dənizə yaxın idilər və bu şeirlər onların səyahət zamanı qarşılaşdıqları çətinliklərlə bağlı idi. Germanlar əsrlər boyu öz vətənlərindən Reyn çayı ilə Yutlandiya yarımadası arasında və Şimal dənizi sahillərindən Böyük Britaniya adalarına qədər təhlükəli dənizləri keçiblər. Onların bu səfərlər zamanı hiss etdikləri narahatlıq və qorxu məhz qədim ingilis poeziyasında əks olunur. Germanların şeirləri yaşıl, al-əlvan çiçəkli çəmənliklərdən, gurultulu axan çaylardan, quşların cingiltisindən və günəşli mavi səmalardan bəhs etmir; bu şeirlərdə qaranlıq meşələr, sıldırım qayalar və dalğalı dənizlərdə uçan qağayılar təsvir olunur [5, s. 60].

Qədim ingilis ədəbiyyatının xristianlıqdan əvvəlki ən məşhur əsəri və ingilis ədəbiyyatında ilk epik poema “Beovulf” hesab olunur. Üç mindən çox sətirdən ibarət olduğu üçün kifayət qədər uzun olan bu dastan 10-cu əsrin sonlarında yazılmışdır. İngilis ədəbiyyatının araşdırmaçıları belə bir şeirin varlığından yalnız 19-cu əsrdə xəbər tutdular. Bu şeirin nə vaxt və harada yazıldığı dəqiq bilinmir. “Beovulf” qədim ingilis ədəbiyyatının ən böyük abidəsidir. Şahzadə Beovulf və heyvan Qrendelin hekayəsi bu gün də oxucuların maraqla oxuduğu dastanlar arasındadır [2, 4].

“Beovulf”da qəhrəmanımız canavarlarla mübarizə aparır və döyüşlərin birində ağır yaralanaraq həlak olur, bu barədə ətraflı təsvirlər gec-tez hər şeyin sona çatacağı mesajını oxucuya ötürür. “Beovulf”da göstərilir ki, heç nə əbədi deyil, gənclik və sevinc ölüm və kədərlə əvəzlənir və s.

Bu dövrün tək-tük müəlliflərindən biri olan Kinvulf bir sıra nəcib dini şeirlərin (anqlo-sakson dilində), xüsusən də Məsih, xristian həvariləri və qəhrəmanları haqqında hekayələrin müəllifidir [2, s. 25]. Bundan əlavə, dönəmlə bağlı “The Wanderer”, “The Seafarer”, “The Battle of Maldon” və s. kimi şeirlər məlumdur. Lakin qədim ingilisdilli poeziyanın şahəsəri, sözsüz ki, “Beovulf” dastanıdır. Ona görə də bu dastanın detalları haqqında təhlil aparmaq daha məqsədəuyğundur.

“Beovulf” miqyas, üslub və mövzu baxımından german qəhrəmanlıq eposunun ənənəsini davam etdirir. Beovulfun canavarın əlini kəsməsi və bataqlığın dibinə batması kimi

hadisələr xalq yaradıcılığından tanış motivlərdir. Şeirdə vurğulanan mənəvi dəyərlər germanların qəbilə və qəbilə başçısına sədaqəti və intiqam hissidir. Poeziya xristianlığın da güclü təsiri altında olduğundan, o, köhnə İslandiya ədəbiyyatının "Edda" şeirlərində və ya İslandiya dastanlarında rast gəlinən qəddar fatalizmdən uzaqdır. Beovulf german qəhrəmanlarından və ya "İliada"nın qəhrəmanlarından daha fədakardır. Bundan əlavə, onun hər üç döyüşü bütün cəmiyyəti və sivilizasiyanı təhdid edən canavarlara qarşı getdiyindən insanlar arasında ayrılığı yox, birliyi təşviq edir [3, s. 11].

Bir çox tənqidçilər şeiri Beovulfun şərə və qaranlığa qarşı yaxşılığı və işığı təmsil edən bir xristian alleqoriyası kimi qiymətləndirsə də, qəhrəmanın fədakarlığı və faciəli ölümünün onun ləyaqətli sonu olması ilə bağlı həmfikirdirlər. Bütün bunlar "Beovulf"un nikbin şeir olduğu anlamına gəlmir, burada gərgin və kədərli üslub daha çox ön plana çıxır.

**Nəticə**

Qədim ingilis ədəbiyyatının xüsusiyyətləri onun mövzu seçimlərində daha çox ön plana çıxır. Demək olar ki, bütün hallarda qədim ingilis poeziyası epik hekayələrdən, döyüşlərdən və müharibələrdən ibarətdir. "Beovulf" bunun ən məşhur örnəyidir. Çox sadə dillə ifadə etsək, dastanda əsas qəhrəman dəhşətli məxluqu sonda məğlub edir. Məhz bu hipermaskulinlik əsasən dövrün ədəbiyyatına xas olan xüsusiyyətdir. Bu mövzular, çox güman ki, qala divarları daxilində qalan və ömürləri boyu döyüş görməyən insanları "əyləndirmək" üçün yazılmışdı. İstənilən halda, mövzular aktualdır; şərə, qaranlığa və hətta bəzən Tanrıya qarşı savaşmaq son dövrlərə qədər də ədəbiyyatın əsas mövzularını təşkil edirdi. Bir maraqlı fakt isə o idi ki, bu şeirlərin hamısı anonimdir və müəllifləri məlum deyil.

Digər tərəfdən, linqvistik olaraq qədim ingilis poeziyası bugünkü şeirdən daha çox alliterasiyaya söykənir, forması, əsasən, qafiyələr əsasında müəyyən olunur. Qədim ingilis ədəbiyyatında qafiyəni birləşdirən misralardan çox, onun ritmini yaratmaq üçün müxtəlif sözlərə və hecalara vurğunun düşməsi yayğın idi. İki sözü birləşdirərək metafora yaratmaq da xüsusilə məşhur idi və zəngin poetik əhval-ruhiyyə yaradırdı. Bu baxımdan, qədim ingilis ədəbiyyatı şifahi xalq ədəbiyyatının bugünkü ədəbi zənginlik üzərindəki danılmaz rolunu öyrənmək baxımından maraqlı bir nümunə təşkil edir və yaxın gələcəkdə də onun daha dərindən araşdırılması məqsədəuyğundur.

## Ədəbiyyat


1. Fletcher, R. H. (2002). *A history of English literature*. Kessinger Publishing.
2. Hattaway, M. (2005). *Renaissance and reformations: an Introduction to early and modern English literature*. Oxford: Blackwell Publishing.
3. Karter, R., McRay, J. (1997). *The Rutledge history of literature in English*. London.
4. Luebering, J.E. (2011). *English lıterature from the old English period through the Renaissance*. New York: Britannica Educational Publishing.

5. Urqan, M. (2013). *İngiliz edebiyatı tarihi*. İstanbul: Yapı Kredi Yayınları..

**LANGUAGE AND STYLISTIC FEATURES OF ANCIENT ENGLISH POETRY**

**Lala Aliyeva**
Azerbaijan University of Tourism and Management, Baku, Azerbaijan

This article is devoted to the study of the linguistic and stylistic features of ancient English poetry. Language and literature, which are considered to be as old as human history, are also observed in various fields in the modern world, and this is described in the article. The article analyzes the stages of English literature, which are divided into ten stages, also about ancient English literature, specific examples of this period and, in particular, the epos "Beowulf" and on its basis identifies the stylistic features of ancient English poetry. The article consists of an introduction, two subheadings and a conclusion. The study concludes that ancient English literature is an interesting example of the undeniable role of oral folk literature in today's literary richness, and it is worthwhile to study it in more depth in the near future.
**Key words:** English poetry, ancient period, Kelts, Beowulf, literature, style

**ЯЗЫК И СТИЛИСТИЧЕСКИЕ ОСОБЕННОСТИ ДРЕВНЕАНГЛИЙСКОЙ ПОЭЗИИ**

**Лала Алиева**
Азербайджанский университет туризма и менеджмента, Баку, Азербайджан

Данное исследование посвящено изучению языковых и стилистических особенностей древнеанглийской поэзии. Язык и литература, которые считаются такими же древними, как и история человечества, рассматриваются в различных областях современного мира, о чем сообщается в статье. В статье анализируются этапы развития английской литературы, которые разделены на десять этапов, также есть информация о древнеанглийской литературы, конкретных примеров этого периода и, в частности, эпоса «Беовульф» и на его основе выявляются стилистические особенности древнеанглийской поэзии. Статья состоит из введения, двух подзаголовков и заключения. В исследовании делается вывод о том, что древнеанглийская литература является интересным примером неоспоримой роли устной народной литературы в сегодняшнем литературном богатстве, и в ближайшем будущем стоит изучить ее более глубоко.
**Ключевые слова:** английская поэзия, древний период, Кельты, Беовульф, литература, стиль

Daxil oldu: 01.03.2022; Çapa qəbul edildi: 30.05.2022; Çap edildi: 20.06.2022

# EVKLİD ALQORİTMİ VƏ DİOFANT TƏNLİKLƏRİNİN HƏLLİ

**Arif İsmayılov**
Lənkəran Dövlət Universiteti, Lənkəran, Azərbacan
e-mail: arif.ismayilov51@gmail.com

**Xülasə.** Bir çox həyati-tətbiqi məsələlərin həlli Diofant tənliklərinin həllinə gətirilir. Ona görə də bu növ tənliklərin həlli həmişə aktuallıq kəsb edir. Diofant tənliklərinin səmərəli həlli üsullarından biri də Evklid alqoritminin tətbiqi ilə həllidir. Bu yazıda Evklid alqoritminin vasitəsi ilə Diofant tənliklərinin əmsallarına görə onun həllinin olub-olmaması müəyyənləşdirilir və əgər həlli varsa, onun tapılması qaydası göstərilir; uyğun tənliklərə aid bəzi məsələlərin həlli verilir. Diofant tənliklərinin həlli müqayisələr nəzəriyyəsi ilə sıx bağlı olduğundan müqayisələr metodunun köməyi ilə verilmiş tənliyin xüsusi həllini tapmaq daha səmərəli olur. Məqalədəki materiallar universitetlərin pedaqoji fakültələrinin "İbtidai sinif müəllimliyi" ixtisası üzrə təhsil alan tələbələrin tədris proqramına daxil olduğu üçün metodik material kimi nəzərdə tutulmuşdur.
Məqalə elmi-pedaqoji yönümlü olduğundan, ondan həm də müəllimlər, orta məktəbin yuxarı sinif şagirdləri və riyaziyyatı sərbəst öyrənmək istəyən şəxslər istifadə edə bilərlər.
**Açar sözlər:** Müqayisə, tam ədəd, qarşılıqlı sadə, xüsusi həll, bərabərtərəfli üçbucaq, diofant tənliyi.

## Giriş.

Evklid alqoritmini şərh etməzdən əvvəl aşağıdakı anlayışlarla tanış olaq:

**Tərif 1.** Verilmiş $a$ və $b$ tam ədədlərin ortaq bölənlərinin ən böyüyünə həmin ədədlərin ən böyük ortaq böləni deyilir və belə yazılır:

$$ƏBOB(a,b)=d.$$

Məsələn: ƏBOB(15;18)=3, ƏBOB(15;16)=1, ƏBOB(–6;–2)=3. ƏBOB(0,0) təyin olunmayıb.

**Tərif 2.** Əgər ƏBOB($a,b$)=1 olarsa, onda $a$ və $b$ ədədlərinə qarşılıqlı sadə ədədlər deyilir.

Məsələn, (10,21)=1; (21;25)=1.

Analoji qayda ilə bir neçə tam ədədlər üçün də ƏBOB anlayışını vermək olar.

**Tərif 3.** $a_1, a_2, ..., a_n$ tam ədədləri o zaman qarşılıqlı sadə ədədlər adlanır ki, əgər ƏBOB($a_1, a_2, ..., a_n$)=1 olsun.

Məsələn, ƏBOB(3,4,5,6,7,8)=1, ƏBOB(4,5,8,10,12)=1.

**Tərif 4**. Bir neçə elementdən ibarət tam ədədlər çoxluğundan götürülmüş istənilən iki ədədin ən böyük ortaq böləni vahidə bərabər olarsa, belə ədədlər çoxluğuna *cüt-cüt qarşılıqlı sadə ədədlər çoxluğu* deyilir.

**Teorem 1.** $n$ sayda ($n \geq 3$) cüt-cüt qarşılıqlı sadə ədədlər həm də qarşılıqlı sadə ədədlərdir.

Qeyd edək ki, bu təklifin tərsi doğru deyildir. Məsələn, 4, 8, 9 ədədləri qarşılıqlı sadə ədədlər olduğu halda onlar cüt-cüt qarşılıqlı sadə ədədlər deyildir; çünki ƏBOB(4,8)=4≠1.

**Teorem 2**. Əgər ƏBOB($a,b$)=ƏBOB($b,c$)=$d$ olarsa, onda ƏBOB($a,c$)=$d$ olar.

Məsələn, ƏBOB(42,18)=ƏBOB(18,12)=6, onda ƏBOB(42,12)=6.

**Teorem 3.** Əgər $a^2+b^2 \neq 0$ (yəni $a$ və $b$ ədədlərindən heç olmasa biri sıfırdan fərqlidirsə), onda

$$ƏBOB(a,b)=ƏBOB(a-b,b)=ƏBOB(a-2b,b)=\ldots=ƏBOB(a-qb,b).$$

Məsələn, ƏBOB(57,6)=ƏBOB(57–6,6)=…=ƏBOB(57–6·9,6)=ƏBOB(3,6)=3.

**Teorem 4**. Əgər $a=q\cdot b+r$, burada $a,b,q,r\in Z$ və $a^2+b^2\neq 0$ olarsa, onda ƏBOB($a,b$)=ƏBOB($b,r$).

Məsələn, 57=6·9+3, onda ƏBOB(57,9)=ƏBOB(9,3)=3. Bu teoremin köməyilə $a$ və $b$ ədədləri üçün ən böyük ortaq bölənin tapılması qaydasına baxaq (müəyyənlik üçün fərz edək ki, $a>b$).

1. $a$ ədədini $b$-yə bölək və aşağıdakı şəkildə yazaq: $a=b\cdot q_1+r_1$, onda

ƏBOB($a;b$)=ƏBOB($b;r_1$).

Əgər $r_1=0$ olarsa, onda ƏBOB($b;r_1$)=ƏBOB($b$;0)=$b$.

2. Əgər $r_1\neq 0$ olarsa, onda $b$-ni $r_1$-ə bölək və aşağıdakı kimi yazaq: $b=r_1\cdot q_2+r_2$ Onda ƏBOB($b;r_1$)=ƏBOB($r_1;r_2$). Əgər $r_2=0$ olarsa, onda ƏBOB($b;r_1$)=ƏBOB($r_1;r_2$)= $r_1$. Bu halda proses başa çatır.

3. Əgər $r_2\neq 0$ olarsa, həmin qayda ilə əməliyyatı davam etdirək. Nəzərə alsaq k $b>r_1>r_2>\ldots>r_n\geq 0$, onda aydındır ki, bu proses sonludur.

$a$ və $b$ natural ədədlərinin ən böyük ortaq böləninin göstərilən qayda ilə tapılmasına *Evklid alqoritmi* deyilir. [5].

Məsələn, Evklid alqoritmindən istifadə edərək ƏBOB(2520,1968) tapaq:

$$\begin{array}{r|l} 2520 & 1968 \\ -1968 & 1 \\ \hline 552 & \end{array}$$

onda 2520=1968·1+552

$$-\begin{array}{r|l} 1968 & 552 \\ 1656 & 3 \\ \hline 312 & \end{array} \qquad \text{onda} \quad 1968=552\cdot 3+312$$

$$-\begin{array}{r|l} 312 & 240 \\ 240 & 1 \\ \hline 72 & \end{array} \qquad \text{onda} \quad 312=240\cdot 1+72$$

$$-\begin{array}{r|l} 240 & 72 \\ 216 & 3 \\ \hline 24 & \end{array} \qquad \text{onda} \quad 240=72\cdot 3+24$$

$$-\begin{array}{r|l} 72 & 24 \\ 72 & 3 \\ \hline 0 & \end{array} \qquad \text{onda} \quad 72=24\cdot 3.$$

Deməli, ƏBOB(2520;1968)=24.

Aşağıdakı bərabərlikləri yazmaq olar:

$$552=2520-1968\cdot 1$$

$$312=1968-552\cdot 3$$

$$72=312-240\cdot 1$$

$$24=240-72\cdot 3$$

Beləliklə, ƏBOB(2520;1968) ədədini aşağıdakı müxtəlif şəkillərdə yazmaq olar:

$$\text{ƏBOB}(2520;1968)=24=240-72\cdot 3=240-(312-240\cdot 1)\cdot 3=$$

$$=240\cdot 4-312\cdot 3=(552-312\cdot 1)\cdot 4-312\cdot 3=552\cdot 4-312\cdot 7=$$

$$=552\cdot 4-(1968-552\cdot 3)\cdot 7=552\cdot 25-1968\cdot 7=$$

$$=(2520-1968\cdot 1)\cdot 25-1968\cdot 7=2520\cdot 25-1968\cdot 32=24.$$

Deməli, 2520·25+1968·(–32)=24.

Beləliklə, elə $u$ və $v$ ədədləri tapmaq olar ki, $a\cdot u+b\cdot v=d$ və ƏBOB($a,b$)=$d$, onda $a$=2520, $b$=1968, $u$=25, $v$=–32, $d$=24.

**Evklid alqoritmi və Diofant tənlikləri haqqında**.

**Teorem 5**. Əgər ƏBOB($a,b$)=$d$ olarsa, onda elə $u, v \in Z$ ədədləri var ki, $a\cdot u+b\cdot v=d$ bərabərliyi ödənilir [2].

**Nəticə**. Əgər $a$ və $b$ qarşılıqlı sadə ədədlərdirsə, yəni $(a,b)=1$, onda elə iki $u$ və $v$ (tam ədədlərini tapmaq olar ki, $a\cdot u+b\cdot v=1$ olar.

Məsələn, $2520\cdot u+1968\cdot v=24$, (2520,1968)=24, onda bərabərliyin hər iki tərəfini 24-ə bölmək olar.

$105\cdot u+82\cdot v=1$, (105,82)=1. $u$ və $v$ üçün isə bu bərabərliyi ödəyən qiymətləri tapmışıq:

$$105\cdot 25+82\cdot(-32)=1,\quad u=25,\quad v=-32\,.$$

$u$ və $v$-nin bu qayda ilə tapılmasına *Evklid alqoritmi* deyilir. $u$ və $v$ üçün tapdığımız $(25;-32)$ tam ədədlər cütü birdəyişənli $2520u+1968v=24$ tənliyinin *xüsusi həlli* adlanır.

Birdərəcəli diofant tənliklərinin ümumi şəkli $ax+by=c$, burada $a,b,c\in Z$ və $a^2+b^2\neq 0$ kimidir.

*Sual olunur*: diofant tənliklərinin əmsallarına görə onun tam həllərinin olub-olmamasını necə müəyyən etmək olar? Əgər belə həllər varsa, onları necə tapmaq olar? Bu suallara aşağıdakı teoremlər cavab verir [1].

**Teorem 6.** Əgər $ax+by=c$ (burada $a,b,c\in Z$ və $a^2+b^2\neq 0$) tənliyində $c \,\vdots\, \text{ƏBOB}(a,b)$ olarsa, onda bu tənliyin tam həlləri var.

***İsbatı***. Tutaq ki, $(x_0,y_0)$ ədədlər cütü verilmiş tənliyin həllidir. Onda $x_0,y_0\in Z$, $ax_0+by_0=c$. $a \,\vdots\, \text{ƏBOB}(a,b)$ və $b \,\vdots\, \text{ƏBOB}(a,b)$ olduğundan $ax_0 \,\vdots\, \text{ƏBOB}(a,b)$ və $ay_0 \,\vdots\, \text{ƏBOB}(a,b)$. Deməli, $c=(ax_0+by_0) \,\vdots\, \text{ƏBOB}(a,b)$. Deməli,

$$c=(ax_0+by_0) \,\vdots\, \text{ƏBOB}(a,b).$$

Beləliklə, əgər $c \,\vdots\, \text{ƏBOB}(a,b)$ olarsa, onda verilmiş tənliyin tam ədədlər olan həlləri var.

Bu həllərin tapılması alqoritmini verək.

**Teorem 7**. Əgər ƏBOB($a$,$b$)=1 və $ax+by=c$ tənliyinin hər hansı tam həllər cütü $(x_0,y_0)$ olarsa, onda bu tənliyin bütün tam həlləri çoxluğu aşağıdakı düsturla tapılır:

$$\begin{cases} x=x_0-bt, \\ y=y_0+at. \end{cases}$$

Burada $t$ ixtiyari tam ədədlərdir [4].

***İsbatı.*** Tutaq ki, $(x_0,y_0)$ tam ədədlər cütü verilmiş tənliyin həllidir. Onda

$$\begin{cases} ax_0+by_0=c, \\ ax+by=c, \end{cases}$$

buradan alırıq:

$$ax_0 + by_0 = ax + by,$$
$$a(x_0 - x) = b(y_0 - y).$$

ƏBOB($a$,$b$)=1 olduğu üçün

$$\begin{cases}(x_0 - x) \vdots b \\ (y_0 - y) \vdots a\end{cases} \Rightarrow \begin{cases}x_0 - x = bt \\ y - y_0 = at\end{cases} \Rightarrow \begin{cases}x = x_0 - bt \\ y = y_0 + at\end{cases}.$$

Göstərək ki, $\forall\, t \in Z$ üçün $(x_0 - bt, y_0 + at)$ ədədlər cütü verilmiş $ax + by = c$ tənliyinin həllidir.

$$a(x_0 - bt) + b(y_0 + at) = ax_0 \underline{- abt} + by_0 + \underline{abt} = ax_0 + by_0 = c.$$

Deməli, $ax + by = c$ tənliyinin bütün tam həlləri

$$\begin{cases}x = x_0 - bt, \\ y = y_0 + at,\end{cases} \quad \text{burada} \quad t \in Z$$

düsturları ilə tapılır.

Qeyd edək ki, Diofant tənliklərinin həlli müqayisələr nəzəriyyəsi ilə sıx bağlıdır. Doğrudan da, $ax + by = c$ tənliyini aşağıdakı kimi yazmaq olar: $ax \equiv c \pmod{b}$ və ya $by \equiv c \pmod{a}$.

**Misal 1**. 3x – 4y = 29 tənliyini həll edin.

*Həlli.* Əvvəlcə tənliyin xüsusi həllini tapaq. $3x \equiv 29 \pmod{4} \equiv 1 \pmod{4}$, $3x \equiv 1 \pmod{4}$. Tutaq ki, $x = 7$, onda $3 \cdot 7 \equiv 1 \pmod{4}$ doğrudur. Deməli, $x_0 = 7$, $3 \cdot 7 - 4y_0 \equiv 29 \Rightarrow y_0 = -2$.

Beləliklə, $\begin{cases}x = 7 + 4t, \\ y = -2 + 3t,\end{cases} \quad t \in Z$

Cavab: $(7 + 4t, -2 + 3t)$, $t \in Z$.

**Misal 2**. $3x + 4y = 5$ tənliyini həll edin.

*Həlli.* $3x \equiv 5 \pmod{4}$. Aydındır ki, $x_0 = 3$ olduqda $3 \cdot 3 \equiv 5 \pmod{4}$ doğrudur.

Deməli, $3 \cdot 3 + 4 \cdot y_0 = 5 \Rightarrow y_0 = -1$, onda $(3, -1)$ ədədlər cütü verilmiş tənliyin xüsusi həllidir. Beləliklə, $3x + 4y = 5$ tənliyinin bütün tam həlləri çoxluğu

$$\begin{cases} x = 3 - 4t, \\ y = -1 + 3t, \end{cases} \quad \text{burada} \quad t \in Z$$

şəklindədir.

**Misal 3**. $11x + 3y = 200$ diofant tənliyini həll edin.

*Həlli*. Əvvəlcə tənliyin xüsusi həllini tapaq. $11x \equiv 200 \pmod 3 \equiv 2 \pmod 3$; $11x \equiv 2 \pmod 3$. Tutaq ki, $x = 1$, onda $11 \cdot 1 \equiv 2 \pmod 3$ - doğrudur. Deməli, $x_0 = 1$, onda $11 \cdot 1 + 3y \equiv 200$, buradan alırıq ki, $y_0 = 63$. Xüsusi həll: $(1; 63)$ olur. Onda

$$\begin{cases} x = 1 - 3t, \\ y = 63 + 11t, \end{cases} \quad t \in Z.$$

*Cavab*: $(1 - 3t; 63 + 11t)$, burada $t \in Z$.

**Misal 4**. $91x - 65y = 42$ diofant tənliyini həll edin.

*Həlli*. ƏBOB(91;–65)=13 və 42 ədədi 13-ə tam bölünmədiyi üçün, yəni $43 \not\vdots 13$, onda teorem 5-ə görə verilmiş diofant tənliyinin həlli yoxdur.

**Məsələ 5.** Kitabxana üçün 20 manata 20 ədəd 3 növ kitab alınmışdır. Bu növlərin uyğun olaraq bir ədədinin qiyməti 3 manat, 2 manat və 50 qəpik olarsa, hər növ kitabdan neçə ədəd alınmışdır?

*Həlli*. Tutaq ki, $x$ ədəd 3 manatlıq, $y$ ədəd 2 manatlıq və $z$ ədəd 50 qəpiklik kitab alınmışdır. Onda

$$\begin{cases} x + y + z = 20 \\ 3x + 2y + \frac{1}{2}z = 20 \end{cases} \Rightarrow \begin{cases} x + y + z = 20 \\ 6x + 4y + z = 40 \end{cases} \Rightarrow \begin{cases} 5x + 3y = 20 \\ x + y + z = 20 \end{cases}$$

$5x + 3y = 20$ diofant tənliyini həll edək. $5x \equiv 20 \pmod 3 \equiv 2 \pmod 3$, $5x \equiv 2 \pmod 3$. Xüsusi həlli tapaq, tutaq ki, $x_0 = 1$. Onda $5 \cdot 1 \equiv 2 \pmod 3$ doğrudur. $5 \cdot 1 + 3y_0 = 20$, $y_0 = 5$. Deməli, $1 + 5 + z = 20$, $z = 14$.

*Cavab*: Kitabxana üçün 1 ədəd 3 manatlıq, 5 ədəd 2 manatlıq və 14 ədəd 50 qəpiklik kitab alınmışdır.

**Məsələ 6**. $13^0$-li bucaq verilmişdir. Onu pərgar və xətkeşin köməyi ilə 13 bərabər hissəyə bölün [3].

*Həlli*. Bərabərtərəfli üçbucaq qurub onun hər hansı təpəsindən hündürlük, tənbölən və ya median çəkməklə $30^0$-li bucaq qurmaq olar. Sonra isə $13x + 30y = 1$, diofant tənliyinin

həllinə baxaq; onda $13x \equiv 1 \pmod{30}$. $x_0 = 7$, $91 \equiv 1 \pmod{30}$ münasibəti doğrudur. Deməli, $13 \cdot 7 + 30y_0 = 1$, $y_0 = -3$. Beləliklə, $(7; -3)$ - xüsusi helldir; $1 = 13 \cdot 7 - 30 \cdot 3$. Bu bərabərliyi dərəcələrlə yazsaq, alarıq:

$$1^0 = 13^0 \cdot 7 - 30^0 \cdot 3.$$

Deməli, $1^0$-li bucağı qurmaq üçün verilmiş $13^0$-li bucağı 7 dəfə artırıb (böyüdüd), $30^0$-li bucağın 3 mislini ondan ayırmaq (çıxmaq) lazımdr. Alınan $1^0$-li bucağı verilmiş $13^0$-li bucağın bir tərəfindən başlayaraq ardıcıl olaraq 13 dəfə ayırmaq lazımdır.

Beləliklə, diofant tənliklərinin tətbiqi ilə verilmiş $13^0$ dərəcəli bucağı 13 bərabər hissə pərgar və xətkeşin köməyi ilə bölünməsinin yolunu göstərmiş oluruq.

**Misal 7.** $6x + 5y = 101$ diofant tənliyini həll edin.

*Həlli* **:** Əvvəlcə tənliyin xüsusi həllini tapaq:

$$6x \equiv 101(mod\ 5) \equiv 1(mod5) \Rightarrow 6x \equiv 1(mod5).$$

Onda $x_0$ =1. Bu qiymƏti verilmiş tənlikdə yerinə yazsaq, $6 \cdot 1 + 5 \cdot y_0 = 101$, buradan $y_0 = 19$. Beləliklə, yaza bilərik:

$$\begin{cases} x = 1 - 5t, \\ y = 19 + 6t; \end{cases} \text{ burada } t\epsilon\mathbb{Z}.$$

*Cavab*: (1-5t; 19+6t), ∀tϵℤ.

**Misal 8**: $5x + 7y = 112$ tənliyini həll edin.

*Həlli* : Əvvəlcə tənliyin bir xüsusi həllini tapaq:

$$5x \equiv 112\ (mod7) \equiv o(mod7),$$

onda $x_0$ =7. , deməli, $5 \cdot 7 + 7 \cdot y_0 = 112$, $y_0 = 11$. Beləliklə,

$$\begin{cases} x = 7 - 7t \\ y = 11 + 5t. \end{cases}$$

*Cavab*: (7-7t; 11+5t), burada tϵℤ.

**Misal 9:** $60x - 7y = 112$ tənliyini həll edin.

*Həlli*: Əvvəlcə tənliyin bir xüsusi həllini tapaq.

$60x \equiv 1(mod77) \equiv 78(mod77)$ , onda müqayisənin xassəsinə görə $10x \equiv 13(mod77)$ doğrudur. Beləliklə, $x_0$=9. Çünki, 90≡ $13(mod77)$ münasibəti doğrudur. $x_0$-ın qiymətini verilmiş tənlikdə yerinə yazsaq alarıq:

$$60 \cdot 9 - 77 \cdot y_0 = 1 \Rightarrow 77y_0 = 539, y_0 = 7.$$

Tənliyin xüsusi həlli (9;7) olduğundan, onun ümumi həlli $\begin{cases} x = 9 + 77t \\ y = 7 + 60t \end{cases}$ olur.

*Cavab*: (9+77t; 7+60t), burada ∀ tϵℤ.

**Məsələ 10:** Otaqda birsiyirməli, ikisiyirməli, üçsiyirməli və dördsiyirməli cəmi 14 stol var. Bütün stollarda olan siyirmələrin sayı 33-dür. Məlumdur ki, birsiyirməli stolların sayı, ikisiyirməli və üçsiyirməli stolların sayları cəmi qədərdir. Otaqda hər növ stoldan neçə ədəd vardır? [6].

*Həlli:* Tutaq ki, otaqdakı birsiyirməli stolların sayı x, ikisiyirməli stolların sayı y, üçsiyirməli stolların sayı z və dördsiyirməli stolların sayı isə t-dir. Onda məsələnin şərtinə görə;

$$\begin{cases} x + y + z + t = 14 \\ x + 2y + 3z + 4t = 33 \\ x = y + z \end{cases}$$

yaza bilərik. Bu sistemi həll etsək alarıq:

$$\begin{cases} x + y + z + t = 14 \quad (4) \\ 3y + 4z + 4t = 33 \end{cases} \Leftrightarrow \begin{cases} 4x + 4y + 4z + 4t = 56 \\ 3y + 4z + 4t = 33 \end{cases}$$

Sonuncu tənliklər sistemində birinci tənlikdən ikinci tənliyi tərəf-tərəfə çıxsaq, $4x + y = 23$ tənliyini alarıq. $4x + y = 23$ diofant tənliyini həll edək;

Aydındır ki, $x_0 = 5$ *və* $y_0 = 3$ bu tənliyin xüsusi həllidir. Şərtdə verilmiş $x = y + z$ bərabərliyindən $z_0$=2 alarıq; onda 5+3+2+$t_0$=14 münasibətindən $t_0$=4 olur.

İkinci şərtin doğruluğunu yoxlayaq:

$$5 + 2 \cdot 3 + 3 \cdot 2 + 4 \cdot 4 = 33.$$

Bərabərlik doğrudur.

*Cavab*: Otaqda birsiyirməli beş stol, ikisiyirməli üç stol, üçsiyirməli iki stol və dördsiyirməli dörd stol vardır.

Xətti olmayan aşağıdakı tənlikləri tam ədədlər çoxluğunda həll edək:

$$x^2 + xy - 2y = 1$$

**Misal 11.** $x^2 + \text{xy} - 2\text{y} = 1.$

*Həlli*: Tənliyin sol tərəfini vuruqlara ayıraq. Bunun üçün $x^2+xy-2y^2=0$ tənliyini $x$-ə nəzərən həll edək:

$$x_{1,2} = \frac{-y \pm \sqrt{y^2 + 8y^2}}{2} = \frac{-y \pm 3y}{2}; \quad \left[\begin{array}{l} x = y, \\ x = -2y. \end{array}\right.$$

Onda $x2 + xy - 2y2 = (x - y)(x + 2y)$. Beləliklə, verilmiş tənlik

$$(x-y)(x+2y)=1$$

olur. Bunu həll edək:

a) $\begin{cases} x-y=1 \\ x+2y=1 \end{cases} \Rightarrow \begin{cases} -3y=0 \\ x=1 \end{cases} \Rightarrow (1;0)$

b) $\begin{cases} x-y=-1 \\ x+2y=-1 \end{cases} \Rightarrow \begin{cases} y=0 \\ x=-1 \end{cases} \Rightarrow(-1;0)$

*Cavab:*$\{(1,0),(-1,0)\}$.

**Misal 12.** $35xy+5x-7y=1$.

*Həlli*: $5x(7y+1)-(7y+1)=0$

$(7y+1)(5x-1)=0$

$\left[\begin{array}{l} 7y+1=0 \\ 5x-1+0 \end{array}\right.$

Aydındır ki, bu tənliyin tam ədədlər çoxluğunda həlli yoxdur.

**Misal 13.** $x^4-y^4-2x^2+6y^2=13$.

*Həlli:* $x^2=t$ $(t\geq 0)$, $y^2=z$ $(z\geq 0)$ əvəzləməsini edək.Onda

$$t^2-z^2-2t+6z=13.$$

Sol tərəfi tam kvadratlara ayıraq:

$$(t^2-2t+1)-(z^2-6z+9)+8=13$$

$$(t-1)^2-(z-3)^2=5$$

$$(t-1+z-3)(t-1-z+3)=5$$

$$(t+z-4)(t-z+2)=5,$$

Buradan alırıq ki,

a) $\begin{cases} t+z-4=5 \\ t-z+2=1 \end{cases} \Rightarrow \begin{cases} t=4 \\ z=5 \end{cases}$; onda $\begin{cases} x^2=4 \\ y^2=5 \end{cases}, y\notin Z.$

b) $\begin{cases} t+z-4=1 \\ t-z+2=5 \end{cases} \Rightarrow \begin{cases} t=4 \\ z=5 \end{cases}$; onda $\begin{cases} x^2=4 \\ y^2=1 \end{cases} \Rightarrow \begin{cases} x=\pm 2 \\ y=\pm 1. \end{cases}$

c) $\begin{cases} t+z-4=-5 \\ t-z+2=-1 \end{cases} \Rightarrow$ $t=-2$, $x^2=-2$, $\emptyset$.

d) $\begin{cases} t+z-4=-1 \\ t-z+2=-5 \end{cases} \Rightarrow$ t=-2, $x^2$=-2, ∅.

*Cavab:* $\{(2;1),(2;-1),(-2;1),(-2;-1)\}$.

## Ədəbiyyat


1. Андронов, И.К. Окунев, А.Н. (2017). *Арифметика рациональных чисел*. М., «Просвещение».
2. Воробьев, Н.Н. (2015). *Признаки делимости.* М.
3. Гельфонд, А.О. (2013). *Решение уравнений в целых числах.* М. :Наука.
4. Ляпин, Е.С., Евсеев А.Е (2018). *Алгебра и теория чисел,* М., «Просвещение».
5. Оре, О. (2020). *Приглашение в теорию чисел.* «Высшая школа» М.
6. Скопинский, В. (2014). *О решении уравнений в целых числах/Пер. с польск*.-М.: «Просвещение».


**EUCLIDEAN ALGORITHM AND SOLUTION OF DIOPHANTINE EQUATIONS**

**Arif Ismailov**
Lankaran State University, Lankaran, Azerbaijan

The solution of many vital problems is brought to the solution of Diophantine equations. Therefore, the solution of such equation is always relevant.One of the most effective ways to solve Diophantine equations is to solve them using the Euclidean algorithm. In this paper, the Euclidean algorithm is used to determine whether there is a solution to the Diophantine equations and if there is the procedure for finding it is shown.The solution of some problems related to the corresponding equations is given.Since the solution of Diophantine equations is closely related to the theory of comparisons, it is more efficient to find a specific solution of a given equation using the method of comparisons. The materials in the article are intented as a methodical material, as they are included in the curriculum of students studying in the specialty “Primary school teaching” of pedaqogical faculties of universities.

As the article is scientific and pedaqogical, it can be used by teachers, high school students and those who want to learn matematics freely.

**Key words**: comparison, integer, coprime, particular solution, equilateral triangle, Diophantus equation.

**АЛГОРИТМ ЕВКЛИДА И РЕШЕНИЕ ДИОФАНТОВЫХ УРАВНЕНИЙ**

**Ариф Исмаилов**
Лянкяранский государственный университет, Лянкярань, Азербайджан

Решения многих жизненно-прикладных задач приносятся в решения уравнений Диофанта. Поэтому решения такого рода уравнений всегда отличается актуальностью. Одним из способов плодотворного решения уравнений Диофанта - это внедрение решения алгоритмов Эвклида. В

этой работе посредством алгоритма Эвклида по коэффициентам уравнений Диофанта определяется возможность или невозможность их решений, а если имеется решения, то указывается пути его нахождения, даётся решения некоторых задач. Ввиду того, что решения Диофантовых уравнений сильно связаны с теорией сравнений, с помощью сравнительных методов ещё плодотворне бывает найти особое решения данного уравнения.Материалы данной статьи предназначаются, как методические материалы, для студентов, обучающихся на учителя начальных классов педагогических факультетов университетов с учебный программой, где имеются эти материалы.

Так как статья научно – педагогического направления, учителя, учащиеся старших классов, лица самостоятельно изучающие математику, могут ею пользоваться.

**Ключевые слова:** сравнение, целое число, взаимно простые, частное решение, равносторонний треугольник, уравнение Диофанта.

Daxil oldu: 01.03.2022; Çapa qəbul edildi: 30.05.2022; Çap edildi: 20.06.2022

# XIX ƏSR TƏBRİZDƏ MÖHTƏKİRLİK VƏ ZEYNƏB PAŞANIN MÜBARİZƏSİ

**Zəhra Qəniyeva**
Azərbaycan Milli Elmlər Akademiyası Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu, Bakı, Azərbaycan
e-mail: zehra.qeniyeva@mail.ru

**Xülasə:** XIX əsrin sonları və XX əsrin başlanğıcı, İran tarixində təlatümlü illər olmuşdur. Bu illər Qacar xanədanının zəiflədiyi və Məşrutənin elan edildiyi dönəm olması səbəbilə özündə siyasi hadisələri ehtiva etməkdədir. Azərbaycan türklərinin İran xalqına ərməğan etdiyi Məşrutə, qadın və kişi fərq etmədən eyni məqsəd üçün mübarizə aparan xalqın uğuru olmuşdur. Tənbəki üsyanı, qıtlıq və Məşrutəyə yol açan Təbriz üsyanında xalq böyük rol oynamışdır. Bu önəmli zəfərlərin qazanılmasında payı olanlardan biri də xalq tərəfindən "Bacı", "Onbaşı" və "Paşa" adlarına layiq görülən Zeynəb xanım olmuşdur. Qadınların ikinci cins sayıldıqları bir toplumda zülmə baş qaldıran və digər qadınları da mübarizəyə dəvət edən Zeynəb Paşa bir çox xalq şerində qəhrəman olaraq təriflənib şifahi və yazılı mədəniyyətin bir parçası olmağı bacarmışdır. Bu məqalədə öncəliklə İranın yaxın tarixi ilə bağlı məlumat verərək Zeynəb Paşanın həyatına və yaşadığı siyasi dövrün hadisələrinə toxunacağıq. Daha sonra Zeynəb Paşa üsyanının ədəbiyyata yansımalarını araşdıracağıq.

**Açar sözlər:** Qadın, Zeynəb Paşa, taxıl, möhtəkirlik, siyasi fəaliyyət

## Giriş

1891-ci il martın 9-da Nəsrəddin şah bütün İranda tütün almaq, satmaq və emal etmək üçün ingilislərə konsessiya verilməsi barədə müqavilə imzalayır və bunun müqabilində şirkət əldə edəcəyi qazancdan ildə İran hökumətinə cüzi bir məbləği – 15 min funt-sterlinqi ödəməyi öhdəsinə götürürdü. İranın bir çox mühüm şəhərlərində şirkətə məxsus idarələr təşkil edən ingilislər Hindistandan və digər müstəmləkə ölkələrindən işçi, qulluqçu adı ilə dəstə-dəstə öz təbəələrini gətirməyə başladılar ki, bu da həmin sahədə çalışan sahibkar, tacir, kəndli, sənətkar və fəhlələr arasında həyəcanın artmasına səbəb oldu, heç kəs öz tütün və tənbəkisini ingilislərə satmağa razı olmadı. Buna cavab olaraq 1891-ci ilin ortalarında ingilis şirkəti İran hökumətinin razılığı ilə tütün alverinin və emalının yalnız bu şirkətə məxsus olduğunu bildirdi. Buna cavab olaraq, 1891-ci il avqustun 19-da Təbriz əhalisinin böyük əksəriyyətinin imzası ilə şaha göndərilən petisiyada tütün və tənbəki inhisarının ləğv edilməsi tələb olundu. Təbriz bazarı bağlandı, 20 min adam silahlanaraq hərəkata qarşı baş verə biləcək hər hansı hadisəyə müqavimət göstərmək üçün hazır vəziyyətdə dayandı. Təbrizin ardınca Şiraz, İsfahan və Məşhəddə şirkətə qarşı kəskin çıxışlar baş verdi. Tehranın özündə inhisarın ləğv edilməsi tələbi ilə əhali 1892-ci il yanvarın 4-də şah sarayına hücum etdi. Bütün bunlar şahı məcbur etdi ki, 1892-ci il yanvarın 5-də Talbotla bağlanmış müqavilənin ləğv olunduğunu rəsmən elan etsin. İrana gəlmiş ingilis məmurları ölkəni tərk etməyə məcbur oldular. İranda ilk antiimperialist çıxış olan bu hərəkatda Cənubi Azərbaycanın ticarət burjuaziyası, sənətkarlar, ruhanilər, digər təbəqələrin nümayəndələri də iştirak edirdilər. Xarici kapitalın və

yerli irtica qüvvələrinin ağalığına qarşı çevrilmiş "Tənbəki üsyanı" İranda və Cənubi Azərbaycanda milli-azadlıq hərəkatının ilk və çox təsirli mərhələsini təşkil etmiş və xalqın siyasi, milli şüurunun oyanmasına və formalaşmasına güclü təkan vermişdi. Hələ XIX əsrin sonlarında Tehranda və başqa şəhərlərdə vətənpərvər ziyalılar tərəfindən yaradılmağa başlayan siyasi təşkilatların sayı az və daxili vəziyyətlə bağlı fəaliyyət dairəsi məhdud olsa da, maarifçi təşkilatlar daha geniş iş aparır, xalqı mütləqiyyət, istibdad əleyhinə monarxın hakimiyyətinin məhdudlaşdırılması, qanunverici orqanın yaradılması və s. uğrunda mübarizəyə çağırırdı. 1901-ci ildə Tehranda təşkil edilmiş gizli cəmiyyət və ya İnqilabi komitə, 1905-ci ildə isə Tehranda yaradılan "Əncümənе-məxfi", (Gizli əncümən)* bütün xalqları, o cümlədən azərbaycanlıları xaricilərin zorakılığı və yerli hakim dairələrinin özbaşınalığı əleyhinə mübarizəyə çağırır, həmçinin burjua ruhunda islahatlar keçirmək tələbini irəli sürürdülər. XX əsrin əvvəllərində bir neçə il qıtlıq olması və bundan istifadə edən mülkədar və alverçilərin taxıl möhtəkirliyinə başlaması nəticəsində İranın, o cümlədən Azərbaycanın bir sıra şəhərlərində aclıq və bahalığa qarşı həyəcanlar baş verdi. 1903-cü ildə Belçikalılarla bağlanmış yeni gömrük sazişinə qarşı çıxışlar başlandı. Göstərilən dövrdə Cənubi Azərbaycanda demokratik fikrin yayılması, milli və siyasi şüurun oyanması, xarici imperializmə və yerli feodal zülmünə qarşı xalq mübarizəsinin güclənməsində bir sıra başqa amillər də böyük rol oynamışdır. Bu amillər içərisində Bakının fəhlə hərəkatının mərkəzinə çevrilməsi, 1905-1907-ci illər I rus inqilabının başlanması, 17 oktyabr manifestinin xalqa verdiyi azadlıqlar, ölkədə siyasi partiyaların, o cümlədən Şimali Azərbaycanda "Müsəlman konstitusiya (məşrutə)" partiyasının yaranması və s. Cənubi Azərbaycan xalqının demokratik azadlıq və hüquqlar uğrunda mübarizəsinin genişlənməsinə gətirib çıxardı və bu hərəkat öz davamını həmin ilin dekabrında İranda, o cümlədən Cənubi Azərbaycanda "Məşrutə inqilabı" nda tapdı.

**Cənubi Azərbaycan 1905-1911-ci illər Məşrutə inqilabında.**

İnqilab 1905-ci ilin dekabrın 12-də Tehranda Kerman əhalisinə edilən zülmə qarşı çıxan demokratik qüvvələrə qoşulmuş tacirlərin döyülməsinə cavab olaraq ruhanilərin evlərində hökumətə qarşı etiraz yığıncaqları təşkil olunması ilə başladı. Ertəsi gün Seyid Abdulla Behbəhani və Seyid Məhəmməd Təbatəbainin başçılığı altında şah məscidində yığıncaq keçirilməsinə mürtəce ruhanilər mane oldular. Dekabrın 14-də Tehranın mütərəqqi ruhanilərindən bir qrup başda olmaqla yüzlərlə dini məktəb tələbəsi, minlərlə bazar əhli etiraz əlaməti olaraq Şah Əbdül əzimdə bəstə* oturmaq məqsədilə Tehranı tərk etdilər. İnqilab Komitəsi (İK) və "Əncüməni-məxfinin" bir çox görkəmli üzvləri də onlara qoşuldu. Tehranda bütün bazarlar, dükanlar və sənətkar emalatxanaları bağlandı. Bəstə oturanlar baş nazirin istefasını tələb edirdilər [1, 207-209].

Qadının mərtəbəsi İran xalqları arasında tarix boyunca dəyişikliyə uğrayıb, hər qövm arasında eyni şəkildə inkişaf etməmişdir. İslamdan əvvəl qurulan Əhəmənilər dövlətinin qurucusu Kiros işğal etdiyi Babildə qadınları da savaş qəniməti olaraq əskərləri arasında paylaşdırmışdır. X və XI əsrlər arasında yaşayan Firdovsi qadını pislik mənasında əjdaha ilə

eyni sinifdə tutur. Monqolların mədəniyyəti və qadına qarşı mülayim rəftar Monqol istilası dönəmində İranda yayılmışdır.

XIX əsrdə baş vermiş hadisələr nəticəsində Qacarlar dövründə qadının sosial vəziyyətində dəyişikliklər ortaya çıxmışdır. Avropadan gələn missionerlər Urmiya, Təbriz və Tehran kimi şəhərlərdə qız və oğlan uşaqları üçün məktəblər açmışdılar. Bu məktəblərdə təlim-tərbiyə alan şagirdlər Pərvin İtisimi və Bibi xanım kimi qadınlar olmuşdur [3, s 14].
Bibi xanım yazdığı Məayib Ül Rical adlı risaləsində qadınlara aid yazılan Taadib Ül Nisvan adlı risaləyə cavab verərkən həmcinslərini adı keçən risalənin yazarı kimi şəxsiyyətlərin söylədiklərini dinləməməyə çağırır və belə yazarların öz eyblərini bilmədiklərini diqqətə çatdırır [4, s. 34-78].

Təbrizin qədim məhəllələrindən biri olan Həm Ziynəddin məhəlləsində kasıb bir ailədə doğulan Zeynəb, kiçik yaşda maddi sıxıntılarla qarşı-qarşıya gəldiyi üçün həyatı boyunca aid olduğu sosial sinfin yaşam tərzini yüngülləşdirməyə çalışmışdır. Güclü olması, ayrıca müasiri olan qadınlardan fərqli olaraq üzünü bağlamaması səbəbi ilə xalq arasında tanınan biri olmuşdur. Onbaşı, Bacı və Bibi ləqəbləri ilə bilinən Zeynəb Paşa kişi kimi hərəkətləri ilə məşhur olmuşdur. Onun kişilərin getdiyi çayxanalara gedib nargilə içdiyi haqqında da məlumatlar vardır [6, s.56].

Zeynəb Paşanın şəxsi həyatı ilə bağlı o qədər də çox məlumat olmamaqla bərabər, həmçinin onun təhsili haqqında da şübhələr vardır. Ancaq düşüncələrinə baxıldığında çox müdrik bir qadın olduğu aydın olur. Zeynəb Paşanın evli və ya bekar olması ilə bağlı da məlumatlar yoxdur. Sosial həyat tərzi haqqında isə onun qırx şəxsi köməkçisi olduğu və hamama getdiyi zaman belə yanından ayrılmadıqları bizə məlumdur. Xarakter olaraq sərt olmasına baxmayaraq həssas bir mənəvi aləmə sahib idi [2].

Zeynəb Paşa üsyanı olaraq adlandırdığımız ard-arda gerçəkləşən hadisələr siyasi hadisələrə reaksiya olaraq həyata keçmiş olmağına rəğmən tamamən xalqın və xüsusilə kasıbların həyat keyfiyyətini yüksəltmək məqsədi ilə həyata keçirilmişdir. Reje cərəyanı, tacirin taxılı saxlayaraq səbəb olduğu qıtlıq və Məşruriyyət üçün zəmin hazırlayan hadisələr əsnasında Zeynəb Paşa təsirli rol oynamışdır.

Bu üsyana daxil olan hadisələr nəticəsində Zeynəb Paşa xalq arasında sevilir və bilinməyən bir şair haqqında iki beyt yazır:

“Hökm eylədi Zeynəb Paşa
Cümlə ənas-u Fərraşa
Siz bazarı basın daşa
Dəğnəyi bağliyim gəlim
Patavamı bağliyim gəlim” [6, s.75]

Bu beytdə Zeynəb Paşanın hərbi komandir və lider kimi göstərilməsi xalqı və o cümlədən, qadınları yönləndirməsinə xidmət edir. Burada təsvir edilən qadın bir alt təbəqə kişi kimi patava adlanan çarığa bənzəyən və ayağa sabitlənməsi üçün arxasından ipləri olan ayaqqabı geyinməsi də diqqət cəlb edir.

Çörəyin qıtlığı dəfələrcə Təbrizdə səs-küyə səbəb olur. Zeynəb Paşa getdiyi hamamlarda, keçdiyi küçələrdə və hər dəfə qadınları gördüyündə onları ayağa qalxmağa dəvət edib uşaqlarının aclıqdan ölmələrini əngəlləmərini istəyir. Zeynəb Paşa, qadınları yaxşı tanıdığı üçün onlara necə təsir edəcəyini artıq bildiyindən onların analıq hislərini istifadə edərək evlərindən mübarizənin ilk sıralarına çəkməyi bacarmışdır. O zəkasını istifadə edərək daha çox qadını arxasına almağı bacarıb, qısa zamanda üç min qadını çevrəsinə toplamışdır. Zeynəb Paşa qadınlardan sonra bu dəfə gedib əsnaf dükanlarını bağladıb ona qoşulmaq üçün onlara təsir etmişdir. Bunun üçün isə qəribə bir metod seçmişdir. "Siz kişilər, əgər zalımların cəzasını verməyə cəsarətiniz yoxdursa, oğruların, yağı-düşmənlərin əlini vətəndən kəsməyə qorxursunuzsa, biz qadınların örpəyini örtüb evdə oturun və kişilikdən danışmayın. Biz sizin yerinizə də sitəmkarlarla döyüşərik..".

Bu söhbətindən sonra isə baş örtüyünü çıxarıb kişilərə tərəf atar və oradan uzaqlaşar. Beləliklə də, kişiləri təsir göstərməyə məcbur buraxıb passiv olmamağı aşılayar. Zeynəb Paşanın önəmli bir fəaliyyəti isə Şahın qoruduğu zəngin möhtəkirlərin anbarlarını tapıb, gizlədikləri taxılı kasıb xalq arasında dağıtmaq olmuşdur. O, Təbriz valisinin də anbarını tapıb xalqa payladıqdan sonra bəzi rəvayətlərə görə özünü də daşlayaraq öldürmüşdür. Bu nümunəvi qadın xalqın qanını şüşəyə doldurub xalq bu vəziyyətdə ikən pulunu pul üstünə artıran möhtəkirlərə (süni şəkildə zəruri məhsulların qıtlığını yaratmaq, sonra isə onları baha qiymətə satmaq) qarşı böyük kin və nifrət hissi duyur. Bu səbəblə onları öldürmək, edam etmək və hətta lazım olunca yanmağı belə rəva görür. Zeynəb Paşanın geyimi ilə əlaqədar da məlumatlar vardır. Əldə etdiyimiz məlumata əsasən, o və dostları vuruşa başladıqları zaman qara çarşabını başlarının arxasında düyünləyərək özlərinə hərəkət azadlığı əldə edərlər. Bəhzad Tahir zadə, Zeynəb Paşanın Nizamül Üləmanın evinə basqın etməsini onun son fəaliyyəti olaraq vurğulamışdır. Şahın birbaşa müşahidəsi altında istədiyi qədər taxıl yığıb istədiyi zaman satmağa icazəsi olan Nizamül Üləmanın anbarı Zeynəb Paşa tərəfindən tapılıb basqın planı hazırlanıb hərəkətə keçilir. Şairin özünün də şahid olduğu bu hadisədə bütün ev yandırılır və Nizamül Üləma Rus konsolluğuna sığınır.

Zeynəb Paşa ömrünün sonlarına doğru Kərbəla ziyarəti üçün səfərə çıxır. Bəzi rəvayətlərə əsasən, yol aldığı karvan Osmanlı dövlətinin sərhədlərində əskərlərin hücumuna uğrayınca yaşlı Zeynəb onlarla döyüşüb qaçmalarına səbəb olur. Bu hadisə Zeynəb Paşa haqqında tarixdə olan son məlumatdır. Rıza Zad-ı Amu Zeynəddin onun yaşadığı məhəllədəki yaşlılarla etdiyi görüşlərdən sonra Zeynəb Paşanın Kərbəlada həyatına son verildiyi və İmam Hüseynin məzarına yaxın bir yerdə dəfn edildiyi qənaətinə gəlmişdir. Buranın yaşlılarına görə Zeynəbin məzarı Kərbəlada hər kəs tərəfindən bilinməkdədir [6, s. 126].

**Nəticə**

İranda qadının yeri və rolu tarix boyunca dəyişikliyə uğrayaraq XIX əsrdə hökm sürən Qacar dövründə dünyadakı qadın haqları hərəkatlarına baxmayaraq daha da pis nəticə vermişdir. Ancaq Avropa ilə qarşılıqlı əlaqədə olan ölkənin bəzi bölgələrində istisnalara rast gəlmək mümkündür. Bunlardan biri həyat və fəaliyyətindən bəhs etdiyimiz Zeynəb Paşa

olmuşdur. Yüksək dünyagörüşünə malik olan bu qadın həmcinslərinin haqlarını tələb etmələrinə kömək olduğu halda tələblərinin feminizm meylli olmayıb bütün vətəndaşların həyatını yüngülləşdirmə yolunda mübarizəyə səsləmişdir. Zeynəb Paşa hökmdarların xalqa xidmət etmək üçün başa keçdiklərini və xalqın lazım gəldiyi vaxtda hərəkətə keçməsinin tərəfdarı olub hər kəsə də bunu təşviq etmişdir.

Təbrizli çağdaş şair Qəhrəman Xətibi Zeynəb Paşa və dostları dövlətin vəzifəliləri arasında dükanı bağladıqları vaxtda baş verən atışmanı şer vasitəsilə təsvir etmişdir. Onun təsvir etdiyinə əsasən, Zeynəb Paşa cəsarət və savaş bacarığı baxımından Babəkə bənzədilir. Bununla bərabər, qadının cəmiyyətdəki yeri və rolunu da uca tutduğu iddia edilmişdir. Qəhrəman Xətibi başqa bir şerində Zeynəb Paşanın müqavimətinin hamıya örnək olduğunu və bu səbəblə adının unudulmayacağını söyləmişdir.

“Çün qadın nehzətilə rəhbər olup
Adı dillərdə qalıp əzbər olup
Göstərib xeyli rəşadət o qadın
Xəlq Zeynəb Paşa qoymuşdu adın” [5, s.76].

Cəmiyyətin islahatında qadının ictimai fəaliyyətinin mühüm rolu vardır. Amma bu ictimai fəaliyyət, onların iffət və əxlaqının tənəzzülünə səbəb olmamalıdır.

1898-ci ildə Zeynəb paşa adlı qadının rəhbərliyi ilə Təbrizdə üsyan baş verdi. Üsyan taxıl möhtəkirliyinə qarşı yönəlmişdi. Zeynəb paşa Təbrizin yoxsul qadınlarını ətrafına toplayaraq taxıl möhtəkirlərinin anbarlarına hücum etdi. Taxıl anbarlarını açdırıb, taxılı aclıq çəkən ailələrə pulsuz payladı.

Təbriz Qacarlar dövlətində ikinci paytaxt rolu oynayırdı, xarici diplomatik nümayəndələrin iqamətgahı burada yerləşirdi. Əyalətin idarə olunması rəsmən vəliəhdin ixtiyarında idi. Adətən, şahzadələr içərisindən təyin olunan valinin sərəncamında olan böyük idarəçilik aparatına Təbriz şəhəri bəylərbəyi, əyalətdə yerləşən nizami qoşun hissələrinin başçısı – əmir-nizam, əyalətin maliyyə işlərinin baş nəzarətçisi və digər dövlət məmurları daxil idilər. Şahzadə və onun ətrafındakı məmurlar öz vəzifələrindən sui-istifadə edərək xalqı soyurdular [6, s 47-49].

**Ədəbiyyat**


1. Azərbaycan tarixi. (2010). *Ali məktəblər üçün mühazirələr kursu. II hissə* (XIX-XXI əsrin əvvəli). Bakı: «Bakı Universiteti» nəşriyyatı.
2. Hansari, A. (1965). *Tefrih Name-yı Gülsüm Nine ve Ehvalat-ı Zeynep Paşa,* Tahran.
3. Nahidi Azer, A. H. (1980). *Zenan-i İran der Cümbüş-i Meşrute*, Ehya, Tebriz.
4. Natık, H. (1980) *“Bibi Hanım Ester Abadi”, Kitap-ı Cuma.*
5. Mahmudlu, Y. *Ümumtəhsil məktəblərinin 9-cu sinfi üçün Azərbaycan Tarixi fənni üzrə dərslik.*

6. Rıza Zad-ı Amu Zeynettini, M. (2015). *Zeynep Paşa*, Ahter, Tebriz, 3. Baskı.

## ZEYNEB PASHA’S FIGHT AGAINST THE SPECULATION IN TABRIZ

**Zahra Ganiyeva**
Azerbaijan National Academy of Science. Institute of Manuscripts named after Mahammad Fuzuli, Baku, Azerbaijan

The end of the XIX and the beginning of the XX century, in the history of İran there were turbulent years. These years are associated with the weakening of the Qajar dynasty and the proclamation of Mashruta. Mashruta, which the Azerbaijani Turks did not grant to İran people, became the success of the people who fought for the same goals as women and men. The people of Tabriz played a big role in the Tenbaki uprising, which led to disaster and Mashrut. One of those who managed to win these significant victories was Ms. Zeinab, who was awarded the titles Baci "Sister," "Corporal" Onbashi and "Pasha" by the people. Zeinab Pasha, who raised violence in a society where women are considered second, and invited other women to fight, heroically became famous in many peoples and managed to become part of oral and written culture. In this article, first of all, we report on the immediate history of İranın, referring to the life of Zeinab Pasha and the events of the political period in which he lived. Then we will study the reflection of the Zeinab Pasha uprising in literature.
**Key words:** Woman, Zeynab Pasha, grain, speculation, political activity

## БОРЬБА ЗЕЙНЕБ-ПАШИ ПРОТИВ СПЕКУЛЯЦИЙ В ТЕБРИЗЕ

**Захра Ганиева**
Национальная Академия Наук Азербайджана. Институт рукописей имени Мухаммеда Физули. Баку, Азербайджан

Конец XIX и начало XX века, в истории Ирана были бурные годы. Эти годы связаны с ослаблением династии Каджаров и провозглашением Машруты. Машрута, которую азербайджанские тюрки не даровали иранскому народу, стала успехом людей, боровшегося за те же цели, что и женщины и мужчины. Народ Тебриза сыграл большую роль в Тенбакинском восстании, которое привело к катастрофе и Машруту. Одной из тех, кому удалось одержать эти значимые победы, была госпожа Зейнаб, удостоенная народом званий Bacı "Сестра", "Капрал", "Onbashi" и "Паша". Зейнаб-паша, воспитавшая насилие в обществе, где женщины считаются вторыми, и пригласившая на борьбу других женщин, героически прославилась во многих народах и сумела стать частью устной и письменной культуры. В этой статье, прежде всего, мы сообщаем о непосредственной истории Ирана, обращаясь к жизни Зейнаб-паши и событиям политического периода, в который он жил. Затем изучим отражение восстания Зейнаб-паши в литературе.
**Ключевые слова:** Женщина, Зейнаб Паша, зерно, высокомерие, политическая деятельность.

Daxil oldu: 01.03.2022; Çapa qəbul edildi: 30.05.2022; Çap edildi: 20.06.2022

# METAFORANIN TƏDQİQİNİN ƏSAS İSTİQAMƏTLƏRİ

**Aysel Mehdiyeva**
Lənkəran Dövlət Universiteti, Lənkəran, Azərbaycan
e-mail: ayselmehdiyevalsu@gmail.com

**Xülasə:** Metaforlaşmanın əsas nəticəsi, məhsulu metaforadır. Metaforalar müxtəlif istiqamətlərdən tədqiq oluna bilir. Metafora bütün sahələrdə təsvir və izah vasitəsi kimi çıxış edə bilər. Metafora harada istifadə olunur-olunsun, o həmişə insan hərəkətini, fəaliyyətini, biliklərini, dilini başa düşməyi zənginləşdirir. Metaforanın hər yerdə işlənməsi onun müxtəlif diskurslara aidliyini təsdiq edən əsas amildir. Real gerçəkliyə, onun predmet və hadisələrinə konseptual yanaşma metaforanın da konseptual nəzəriyyəsinin yaranmasına səbəb olmuşdur. Metaforanın konseptual nəzəriyyəsi çərçivəsində insan yaşadığı dünyanı metaforanın köməyi ilə dərk edir. Metafora təfəkkürlə dilin qarşılıqlı əlaqəsini əks etdirdiyi üçün və metafora və metaforlaşmanın diskurs planından öyrənilməsinə görə dildə metafora hadisəsinin və metaforikləşmənin araşdırılması həmişə aktuallığını saxlaya bilmişdir.
**Açar sözlər:** Metafora, diskurs, konseptual metafora, arqotik metafora, metaforikləşmə, metaforik obraz.

## Giriş

Metafora ya aid tədqiqatlar antik dövrdən başlanmış və bu gün əvvəlki dövrlərdən fərqli olaraq daha geniş öyrənilən problemlərdən biridir. Şübhəsiz ki, bu problem Azərbaycan dilçiliyində və germanşünaslıqda diqqətdən kənarda qalmamışdır və bu dillərdə metafora məsələsinə aid çoxlu tədqiqat işləri həsr olunmuşdur.

Metafora ilk dövrlərdə məcazlar sistemində diqqət mərkəzinə çəkilmiş, metonimiya və metafora adlandırılan iki növdə fərqləndirilmişdir. Müxtəlif siniflərə məxsus iki vahid (obraz) arasında assosiasiya məcazi assosiasiyadır. Birbaşa və məcazi əlaqə kontekst çərçivəsində aşkarlanır. Bəzi hallarda kontekst iki sözdən ibarət birləşmə də ola bilir.

Sözün ümumi mənası «semantik invariant» adlandırılır. Müxtəlif mənalar məhz bu ümumi məna vasitəsilə bir-birinə bağlanır. Sözün ümumi mənası sözün nüvəsini təşkil edir.

Çoxmənalı sözlərin mənalarının bir qismi semantik assosiasiyalar (metafora, metonimiya, funksional köçürmə) əsasında meydana çıxmış olur. Bu halda «ümumi məna» və ya əsas məna ilə əlaqə qırılır. Məcazi mənalar ümumi mənanın semantik variantları kimi çıxış edə bilmir. Burada əsas məsələ sözün mənası və onun forması arasındakı əlaqə, bir sözün mənaca başqa sözlərlə bağlılığı, məna və məfhum arasındakı münasibətidir. Dildə işlədilən sözlər həm həqiqi, həm də məcazi mənada işlənə bilir. Bu iki məna arasında müəyyən əlaqənin mövcudluğuna görə söz özünün həqiqi mənasına əsasən məcazi mənada işlədilir, buradan da yeni məna çalarları yarada bilir. Sözlərin məcazi mənada işlədilməsinin bir şəkli də metaforadır.

Metafora insan tərəfindən yaradılır və bu zaman insanın şüurunda müxtəlif bilik sahələri arasındakı münasibət və əlaqələr qarşılaşdırılır, bir sferadan digərinə keçid yaradılır. Metafora modellərinin yaradılmasında iki qütbdən istifadə edilir. Bu qütblərdən birində duran

semantik sahənin vahidi özünün ilkin, yəni metaforlaşmamış mənasında olur, digər qütbdə metaforlaşmış məna sahəsini təşkil edir. Məkan metafora məsələsinə üç istiqamətdə yanaşmaq olar. Birinci istiqamət məkan mənası olmayan sözlərin məcazlaşaraq yer bildirməsi, ikinci istiqamət məkan ifadə edən vahidlərin metaforlaşması yolu ilə məkan metaforalarının yaranması, üçüncü istiqamət məkan bildirən leksemin, vahidin məcazlaşaraq əvvəlki məkan mənasını itirməsidir.

Bildiyimiz kimi, əksər insanlara görə metafora şair, yazıçı, başqa sözlə, yaradıcı insanlar üçün bir vasitədir. Çox az insan bizim metaforik ifadələrdən gündəlik nitqimizdə istifadə etdiyimizdən xəbərdardır. Bu, hər kəsin bu haqda nə düşündüyü fikrindən daha çox asılıdır. Corc Lakof və Mark Conson 1980-cı ildə yazdıqları məşhur “Metaphors we live by” (“Yaşadığımız metaforalar”) əsəri ilə metaforalara hər zaman hər yerdə işlənə bilməsini iddia edərək konseptual metafora nəzəriyyəsini ilk olaraq ortaya qoydular. Metaforaya koqnitiv yanaşmanı sərgiləyən həmin nəzəriyyəyə qədər metaforalara müxtəlif yanaşmalar olmuş, onlar haqqında xeyli yazılmış və ya deyilmiş fikirlər mövcud olmuşdur [13].

Hər şeydən öncə, metaforalar haqqında bədii dilin ifadə vasitəsi olmaqla çoxlu təriflər vardır. Ən çox yayılan tərif belədir: metafora *kimi, bənzər* tipli müqayisə bildirən sözlərdən istifadə etmədən birbaşa müqayisə yolu ilə köçürmə deməkdir [15]. Metafora haqqında ilk elmi fikir e.ə. IV əsrdə yaşamış qədim yunan filosofu və alimi Aristotelin “Poetika” əsərində qeyd olunmuşdur. Aristotel ilk dəfə olaraq metaforalara elmi şəkildə yanaşaraq onların ətraflı təsvirini vermişdir. O qeyd edirdi ki, metafora bir əşyaya başqa bir əşyanın malik olduğu adın verilməsindən ibarətdir ki, burada köçürmə ya cinsdən növlərə, yaxud növlərdən cinsə qədər, ya da ki növlərdən növlərə qədər ola bilir, daha çox oxşarlıq zəminində qurulur [15]. İngilis maarifçisi, ədəbi tənqidçisi İ.A.Riçardz daha da irəli getdi. O, dilə metaforalardan danışarkən bu gün də istifadə olunan bir terminologiya gətirdi. Onun fikrincə, metafora mövzu və vasitə adlanan iki termindən ibarətdir. İkincisi, məcazi mənada işlənən termindir və bu iki terminin təməl adlanan əlaqələri vardır. Məşhur Sovet dilçisi, leksikoloqu İ.V.Arnold metaforaya bu izahı vermişdir: metafora oxşarlıq əlaqələndirilməsinə əsaslanan adın köçürülməsidir və beləliklə, bu, əslində gizli bir qarşılaşdırmadır, yəni müqayisədir. Bu, bir şeyi digərinə bənzədərək sanki digəriymiş kimi istinad edən təsvir üsulunu bizə təqdim edir. Məsələn, *hiyləgər adam tülkü* kimi adlandırılır. Gördüyümüz kimi, bütün bu izahlar arasında oxşarlıqlar üzərində qurulmuş bir-biriylə bağlı olan iki termindən ibarət ortaq cəhət vardır. Amma onlar dili bəzəməklə metaforaların funksiyalarını da məhdudlaşdırmışlar [1, s. 130].

Alman dilçisi H.Paul qeyd edir ki, metaforalar oxşarlıq və ya müqayisənin çox müxtəlif növlərinə əsaslana bilər, məsələn, forma oxşarlığına: *head of a cabbage-kələmin başı,the teeth of a saw- mişarın dişi*. Bu oxşarlıq funksiyaya əsaslana bilər. Köçürülmüş məna kontekstdən asanlıqla tanına bilir: *the head of the school-məktəbin başçısı, the key to the mystery-sirrin açarı.* Oxşarlıq mövqe ilə də daşınıla bilər: *foot of a page-səhifənin ayağı.* Metaforik köçürmənin çoxsaylı halları zaman və məkan arasındakı oxşarlığa da əsaslana bilər:

*long distance-long speech-uzun məsafə-uzun çıxış, a short path-a short time-qısa cığır-qısa vaxt* [ 1, s. 131].

Dilçilikdə metaforaya həsr olunmuş tədqiqat işlərində C.Lakofun irəli sürdüyü koqnitiv metod geniş istifadə olunur. Bu metodda metaforanın yaranmasını ehtiva edən metaforlaşma və ya məcazlaşma koqnitiv mexanizm kimi götürülür və mexanizmdə iki bilik sisteminin qarşılıqlı təsiri əsasdır. Birinci struktur mənbədir, ikinci isə metaforlaşma məqsədini özündə birləşdirir.

Metaforlaşma prosesində yeni mənanın yaranması həmişə birbaşa inikasla getmir. Köçürmə dərhal baş vermir. Əşya, hadisə, predmetlər şüurda təsəvvür olunur, müqayisə və qiymətləndirmələr aparılır. Metaforanın əmələ gətirdiyi modellər mürəkkəb olduğuna görə, müqayisə vacib şərt kimi özünü göstərir. Yeni dil vasitəsi, reprodiktiv-kombinator vahidlər müəyyən model əsasında formalaşır.

«*Linqvistikada metafora probleminə həm dərketmədə ifadənin yeni mənasını yaradan proses, çox zaman üslubi vasitə və ya bədii üsul, bəzi hallarda adlandırma vasitəsi, az hallarda isə gerçəkliyin hisslərlə birbaşa ifadəsi mümkün olmayan sahələrinin əks etdirilməsi üçün dildə olan mənaların koqnitiv manipulyasiyası ilə dünyanın dil mənzərəsini yaratmaq üsulu kimi baxılmışdır*» [10, s. 34].

Məkan metaforalarının təhlili göstərir ki, «insan -zaman» modeli sahəsi olduqca genişdir. İnsan konseptual sahəsi metaforik köçürmənin əsas mənbələrindən biri kimi özünü göstərir. Sahə bədən üzvləri, xarakter, müxtəlif hərəkətlər, fizioloji proseslər qruplarına bölünür. Onlardan bədən üzvləri və insana xas hərəkət, eləcə də fəaliyyət daha geniş tətbiq edilir. Belə metaforaların müəyyənləşdirilməsi zamanı insana aid xüsusiyyətlərin məkan ifadə edən vahidlərə şamil edilməsi əsas götürülür. Metaforanın təyini üçün vacib əlamət şəxsləndirmə ilə bağlıdır.

Hərəkət bilavasitə zaman və məkanla bağlıdır. Hərəkət başlanğıcla və istiqamətlə səciyyələnir. Lakin bütün hərəkət formalarında istiqamət aşkar şəkildə özünü birüzə vermir. Bəzən isə istiqamət fakültətivliyi ilə seçilir. Məsələn, «ömür budağının əsməsi» halında hərəkət istiqamətinin aydın olmasına ehtiyac yoxdur. Hərəkətin zamanın dəyişməsi kimi reallaşması implistit şəkildə olduqda metafor məna zaman dəyişməsinin səbəb və nəticəsində üzə çıxır.

Metaforalar həm makrokontekstdə, həm də mikrokontekstdə formalaşa bilər. Sözlərin ilkin və əlavə mənaları bir-birinə çox oxşamasalar da, kontekstin köməyi ilə fərq aydınlaşır. Kontekst sözün çoxmənalılığını, metaforlaşmasını aşkarlayır.

Sözlərin leksik birləşmə yaratma imkanları onların semantikasından asılıdır. Bir sıra leksik vahidlər məkanla bağlı olduğundan metaforlaşmaya daha çox meyillidir. Bizi əhatə edən xarici aləm hadisələri müxtəlifliyi, rəngarəngliyi ilə seçilir. Hadisələr isə məkan daxilində baş verir. Bəzən bu məkan konkret, bəzən qeyri-müəyyən, bəzən faktültətiv və ya irrelevantdır.

Metafora kifayət qədər mürəkkəb və geniş yayılmış məcaz növüdür. Metaforik məna oxşarlığa görə adların köçürülməsi, digərinə aid edilməsi yolu ilə meydana çıxsa da, onun formalaşdırılması fərdi bənzətmə, subyektiv köçürmələrlə də gedir. Bu baxımdan insan-zaman modeli əsasında qeydə alınan metaforaların fərdi növləri və ya fərdi üsluba xas olanları çoxdur [2, s. 25].

A.N.Kojın yazır: "*Bədii mətndə sözün estetik rolu məcaz vasitələri ilə təzahür edir. Metaforikləşmə ünsiyyətin müxtəlif sahələrində mühüm rol oynayır. Həmçinin o, nitq predmetinə bədiilik verərək, onun konkret, tipik əlamətlərinin ayrılmasına da kömək edir. Poetik nitqin strukturunda mövcud olan metaforikləşmə obrazın axtarışına, ekspressiv fonun gücləndirilməsinə, səciyyələndirilənlə predmetin məğzinə varmağa yönəldilir. Bu istiqamətdən yanaşma zamanı metaforanın bədii əsərin dilindəki vahidlərin təşkili ilə sıx bağlılığı üzə çıxarır»* [5, s. 27].

S.A.Çuqunova temporal metafora probleminə məkan və zamanın qarşılıqlı təsiri zəminində baxır. Dildəki temporallığı bir-biri ilə müqayisədə şərti olaraq üç yerə ayırmaq olar: 1) qrammatik zaman; 2) aspekt; 3) temporal hadisələrin bir-birinə və danışana nəzərən sıralanması (time sequencing). The worst is behind us. Thursday is before Saturday. Müəllifin fikrinə görə, zaman bir ölçüyə malik hərəkət edən mahiyyət kimi qavranılır. Onun istiqamətini ifadə etmək üçün simmetrik ox (right/left) əvəzinə, assimmetrik horizontal və vertikal oxlardan ( front/back - before/after; up/down) istifadə olunur [11, s.116].

Dil işarəsinin məzmun tərəfi konsept əmələ gətirir və konseptin arxasında insan mövcudluğunun vacib sahələrinə aid intellektual, mənəvi xüsusiyyətlər, həmçinin zaman keçdikcə əldə olunan təcrübə durur.

Konsept çoxölçülü anlayışdır və onun əsas üç ölçüsü xüsusi qeyd olunur. Obraz, anlayış və və dəyər bu üç ölçünü əhatə edir. Konseptin obraz cəhəti görmə, eşitmə, taktil, dad, qoxu xüsusiyyətlərini özündə birləşdirir. Konseptin anlayış tərəfi onun dil vasitəsilə qeydə alınması, adlandırılması, təsviri, əlamət strukturu, definisiyası, başqa konseptlərlə münasibətdə tutuşdurma xarakteristikasıdır. Nəhayət, konseptin dəyər tərəfi onun həm fərd, həm də kollektiv üçün əhəmiyyətini əhatə edir [3, s. 5]. Fərdi və ictimai şüurdakı konseptlər çoxluğu fərdin, qrupun, xalqın konsept sahəsini təşkil edir [4, s. 9]. Bu konsept sahəsi tam bilik əmələ gətirir.

V.V.Krasnıx bilik və təsəvvürlərin üç sahə qrupunu ayırır: 1) fərdi koqnitiv; 2) kollektiv koqnitiv; 3) koqnitiv baza [6, s. 45].

Real gerçəkliyə, onun predmet və hadisələrinə konseptual yanaşma metaforanın da konseptual nəzəriyyəsinin yaranmasına səbəb olmuşdur. Metaforanın konseptual nəzəriyyəsi çərçivəsində insan yaşadığı dünyanı metaforanın köməyi ilə dərk edir [8; 12, s. 7]. Metaforanın müasir qavramı onun müqayisə və ya əvəzləmə şəklində başa düşülməsindən çox-çox genişdir.

Məcazi məna ilə birbaşa məna arasında əlaqələrin qavranması və aydınlaşdırılması xüsusi intellektual əməliyyatın nəticəsidir. Belə əməliyyat yalnız adi müqayisəyə deyil, insan

şüurunda iki substansiyanın təsiri və onlar haqqında bilik, eləcə də təcrübələrə əsaslanır. C.Lakof və M.Consonun nəzəriyyəsinə görə, əsas fundamental dəyərlər müvafiq mədəniyyətin mühüm konseptlərinin metaforik strukturu ilə uzlaşır [8, s. 46].

Kubryakova, Çudinov, Barselona, Deyqnan kimi bir çox tədqiqatçılar metaforaya mühüm mental əməliyyat, ətraf aləmi, dünyanı dərketmənin, strukturlaşdırmanın və qiymətləndirmənin vacib üsulu kimi baxırlar. Metaforanın dünyanı dərketmə üsulu olması ideyası XX əsrin birinci yarısında da irəli sürülmüşdür. Orteqa-I Qasset yazmışdır: "Metafora bizə yalnız düzəldilmiş ad əsasında fikrimizi başqaları üçün başa düşülən etmək məqsədilə deyil, həm də obyektin özümüz tərəfindən dərkinə görə lazımdır. Metafora təkcə ifadə vasitəsi deyil, həm də təfəkkürün vacib silahıdır" [9, s. 71].

Dildə metaforanın nominativ-funksional tipləri mövcuddur. Bu tiplər predmetli\predmetsiz, deskriptiv\\qiymətləndirmə, neytrallıq\\ ekspressivlik, obrazlılıq\\qeyri-obrazlılıq və s. qarşıdurmalarda üzə çıxır. Onların semantikası bu yaruslar üzrə müəyyənləşdirilir. Metafora tiplərinin sərhədləri dəqiqləşdirilir. Həmin tiplər aşağıdakılardır: identik metaforalar, predikativ metaforalar, obraz-estetik metaforalar, qiymətləndirici-estetik metaforalar, emotiv metaforalar.

Metaforanın semantikası abstrakt mənaya daha çox yaxınlaşır. Abstarkt mənalar insanın emprik sahədəki fəaliyyəti ilə əlaqədardır. Bu bağlılıq müxtəlif tip metaforaların əmələ gəlməsini şərtləndirir:

Poetik və ya obraz-estetik metaforlarda psixoloji gərginlik hakimdir. Burada semantik sintez ikiplanlıdır. Həmin metaforalar qeyri-real həyatı təsvir edir.

Obrazlı metaforalar üslubiyyat elmində nəzərdən keçirilir. Bunlar mətndə ekspressiv effekt yaradır. Obrazlı metaforalar bədii metaforlarla üzə çıxır.

Metaforikləşmə prosesində metaforik obrazlar yaranır. Bədii əsərdə metaforik obrazlar özü-özlüyündə çıxış etmir, onlar bədii obrazlarla sıx əlaqədə meydana gəlir. Əsər bədii obrazları obrazlar sistemində cəmləşir. Əsərin bədii sistemini orada yaradılan obrazlar və həmçinin bütövlükdə müəllif fikri ilə əsərin məzmunu qarşılıqlı münasibət təşkil edir. Obrazların arasındakı əlaqələr horizontal (xətti, sintaqmatik) və vertikal (iki tərəfi açıq, paradiqmatik) ola bilər.

Metaforik sıra üzvlərinin arasındakı fərqlər aşağıdakı tip əlaqələrdə müşahidə oluna bilər:

- metaforizə olunan obrazların birliyi yox, oxşarlıq zamanı;
- metaforizə olunan predmeti bilavasitə təyin edən linqvistik vasitələrinin (sinonim, parafraz və s.) seçimi;
- metaforikləşən əşya ilə bilavasitə mənaca bağlı olmayan komponentlərin əvəz edilməsi;
- metaforikləşən obrazın digər metaforikləşən obrazlara daşınması.

Tədqiqatlar göstərir ki, konseptual metaforalardan siyasi diskursda istifadə olunur. Bu cür diskurslarda konseptlərin rolu böyükdür. Metaforalar anlayışların təzahürü kimi siyasi

diskursda müəyyən idrak əməliyyatlarını dəqiqləşdirmək üçün güclü siqnallar göndərir. Metaforaları anlamadan məlumatı verən və qəbul edən müxtəlif əqli proseslərdə eyni cür düşünə bilməz. Söz bir forma kimi istər-istəməz öz referentini ifadə edir, bu da metaforanın əsasını təşkil edir. Əslində bütün sözlər metafora əlamətinə malikdir.

Konseptual metafora qloballaşan dünyada bəşəri xüsusiyyət qazanır. Amma buna baxmayaraq, müxtəlifsistemli dillərdə onların təzahürü fərqlidir. Nəticədə konseptual metaforalar müəyyən mədəniyyətin, eləcə də sosial qrupların məhsuluna, onun ayrılmaz hissəsinə və beləliklə, onların dərketmə vasitəsinə çevrilir.

Konseptual metafora müəyyən məqsədə çatmaq və onu həyata keçirmək üçün qarşılıqlı təsirdə olan tərəflər arasında əlaqələndirici amildir.

Arqotik metaforalar- metafora formalarında biri də arqotik metaforalardır. Arqo adı altında tədqiqatçılar sözyaradıcılığı sistemini, sözün törəmə sistemini, mətn və ifadə, qısa danışıq, poetik incəsənət və s. kimi məsələləri nəzərdə tuturlar. Arqo yalnız linqvistik hadisə deyil, eyni zamanda sosial hadisədir, dil və mədəniyyət arası əlaqədir. Arqo bağlı bir sistemdir. Arqo familyar nitqin forması kimi də çıxış edir. Arqo həmçinin ekspressiv və qənaət prinsipini həyata keçirən bir dil hadisəsi kimi də özünü göstərir. Metaforik və sinonimik keçidlər arqo leksikasında da baş verir. Arqolar dildə fonetik-morfoloji və semantik üsullarla formalaşır. Arqoların böyük ekspressiv potensiyası mövcuddur.

Arqotik metaforalar danışıq nitqinin orijinal formalarıdır. Söz və ifadə yaradıcılığını obrazlı olaraq təşkil edir. Arqotik metaforalar ekssentrik həyatı əks etdirir. Dünyanın metaforik obrazlarını yaradır. Xeyli sayda arqotik metaforalar mənfi çalarlarda istifadə olunur.

Arqotik metaforalar ekspressiv leksikadır, gizli şəkildə sözlərin formalarını deformasiyaya uğradır. Arqotik metaforalarda məna dəyişmələri, fikri tez başa düşmək kimi anlayışlar xasdır.  Metafora müxtəlif tip diskursların (poetik diskurs, elmi diskurs, siyasi diskurs və s.) təşkilində mühüm rola malikdir. Mənanın semantik cəhəti adlandırma ilə sıx bağlıdır. Semantik işarənin denotatla əlaqəsini, sözün əşyavi məzmununu əks etdirir. Məna dildə danışanların fəaliyyətinin məzmunu ilə əlaqələndirilməlidir. Müəyyən əşya və ya hadisəni adlandıranda məntiqi təfəkkür qanunlarına deyil, kompleks təfəkkür qanunlarına istinad olunur. Ona görə də assosiasiya, bənzərlik və yaxınlıq əsasında məna köçürmələri yaranır.

Metaforlaşmanın əsas nəticəsi, məhsulu metaforadır. R.Hofman metaforanı belə izah etmişdir: «Metafora son dərəcə praktik olan vasitədir. Metafora bütün sahələrdə təsvir və izah vasitəsi kimi çıxış edə bilər. Psixoterapevtik söhbətlərdə, aviaxəttin pilotları arasındakı danışıqlarda, mərasim oyunlarında, proqramlaşdırma dillərində, bədii dildə, eləcə də kvant mexanikasında da tətbiqini tapa bilər. Metafora harada istifadə olunur, olunsun, o həmişə insan hərəkətini, fəaliyyətini, biliklərini, dilini başa düşməyi zənginləşdirir [14]. Metaforanın hər yerdə işlənməsi onun müxtəlif diskurslara aidliyini təsdiq edən əsas amildir. Məhz bu cəhət metafora və metaforlaşmanın diskurs planından öyrənilməsini aktuallaşdırmışdır.

Məlumdur ki, insan fəaliyyətinin ən vacib elementlərindən, ən dəyərli məhsullarından biri nitqdir. Məhz nitq diskurs təhlili, konversiya (termin bəzən konversasion kimi də işlədilir) təhlili, nitqin daxilində inkişaf edən dialoq təhlili adlandırılan yeni elmi istiqamətlərin obyekti olmuşdur.

Müasir dövr dilçiliyində «diskurs» anlayışı geniş istifadə olunur. Bununla belə, diskurs anlayışının təyin edilməsi ilə bağlı elmi mübahisələr hələ də davam edir. Fransız dilindən alınma termin olan diskurs (discours - nitq) müxtəlif elm sahələrində işlənir. Bu termin mətn dilçiliyində də geniş istifadə olunur. Termin fərqli şəkildə izah olunur. Kommunikativ təsir nitq və yazı formasında olub verbal və qeyri-verbal tərkib elementlərini özündə birləşdirə bilər. Kommunikativ fəaliyyətin bitmiş və ya davam edən məhsulu olan diskus həmin kommunikativ prosesin yazı və ya nitq formasnda ifadəsinin nəticəsidir. Diskurs kommunikativ fəaliyyətin yazılı və ya şifahi formada olan verbal məhsuludur.

Metaforikləşməyə məruz qalan nitq hissələri və sintaktik vahidlərdir. Nitq hissələri müxtəlif tematik qruplarda metaforikləşir.

İsimlər aktiv şəkildə metaforikləşir. İnsanın bədən üzvlərinin adları, geyim, parça, yeyinti məhsullarının adları, təbiət hadisələrinin və zaman adları metaforikləşir. O.N.Aleşina cansız isimlərin müasir rus ədəbi dilində metaforikləşməsi haqqında namizədlik dissertasiyası yazmış və maraqlı təsnifat aparmışdır.

Bədii dildə həm xüsusi, həm də ümumi ismlər metaforikləşir. Xüsusi isimlər metaforikləşəndə «danışan adlar» yaranır. Ümumi isimlərin metaforikləşməsinin bir sıra tematik və ya leksik-semanti qruplar üzrə təhlil etmək mümkündür.

Ümumi isimlərin semantik motivləşməsini LSQ-lər üzrə - 1) heyvan adları; 2) quş adları; 3) sürünən heyvanların adları; 4) bitki adları; 5) təbiət hadisələri adları; 6) mineralların adları; 7) predmet-əşya adları; 8) yemək adları və s. üzrə araşdırmaq olar.

Metaforikləşmə - semantik motivləşmə yolu ilə metaforlaşma hadisəsinin tarixi qədim olub, bədii düşüncənin yarandığı dövrdən üzü bəri inkişaf etməkdədir.

Tədqiqat göstərir ki, semantik motivləşməni şərtləndirən amillər sırasında denotativlik başlıca amildir.

Məna keçidləri prosesi adətən «metaforikləşmə» yaxud «semantik motivləşmə» terminoloji vahidləri ilə adlandırılır. N.A.Kupina yazır ki, semantik motivləşmə - dörd mərhələli bir metaforikləşmə prosesidir. Bu mərhələnin sonu sözün motivləşməsi ilə başa çatır [7, s. 43].

## Ədəbiyyat


1. Арнольд, И.В. (1973). *Лексикология современного английского языка.* Москва.
2. Калинин, И.В. (2020). *Метафора как предмет лингвистических исследований.* Москва.

3. Карасик, В. И. (1998). *О категориях дискурса Текст.* / В. И. Карасик // Языковая личность: социолингвистические и эмотивные аспекты: сб. науч. трудов / под ред. Карасика, В.И. Волгоград; Саратов: Перемена.
4. Карасик, В.И. (2001). Лингвокультурный компонент как единица исследования / Карасик, В.И. Слышкин Г.Г. // *Методологические проблемы когнитивной лингвистики / под ред.* И.А. Стернина. - Воронеж: ВорГУ.
5. Кожина, М.Н. (1993). Стилистика русского языка Текст. / М. Н. Кожина. М. Просвещение.
6. Красных, В.В. (2003). «Свой» среди чужих: миф или реальность? Текст./ИТДГК «Гнозис», 375 с.
7. Купина, Н.А. (1969). *Процесс образования метафорических слогов, Вопрос лексикологии лексикографии русского языка.* Свердловска.
8. Лакофф, Д. Джонсон, М. (2004) *Метафоры, которыми мы живем.* УРСС Эдиториал.
9. Ортега-и-Гассет, Х. (1990). Две великие метафоры // Теория метафоры. — М.
10. Телия, В.Н. (1988). Метафора как модель смыслопроизводства и ее экспрессивно-оценочная функция / В. Н. Телия // Роль человеческого фактора в языке. Язык и картина мира. - М.: Наука.
11. Чугунов, А.А. (2014). Русскоязычный и англоязычный финансовый дискурс: метафоры как средство эмоционального воздействия на реципиента // Вестник Моск. гос. ун-та. Сер. 19. *Лингвистика и межкультурная коммуникация*. № 3.
12. Чудинов, А.П. (2001). *Россия в метафорическом зеркале: когнитивное исследование политической метафоры (1991-2000):* монография / А. П. Чудинов. Екатеринбург: Урал. гос. пед. ун-т.
13. Lakoff, G. and Johnson, M. (1980). Metaphors We Live By, *The University of Chicago Press.*
14. Hoffman, R. (1980). *Cognition and Figurative Language*. London.
15. Kövecses, Z. (2010). Metaphor. *Oxford University Press.*

**MAIN WAYS FOR METAPHOR RESEARCH**

**Aysel Mehdiyeva**
Lankaran State University, Lankaran, Azerbaijan

The main result of metaphorization is a metaphor. Metaphors can be studied from different angles. Metaphors can serve as a means of description and explanation in all areas. Wherever metaphor is used, it always enriches the understanding of human action, activity, knowledge, language. The ubiquity of the metaphor is a key factor in confirming its relevance to various discourses. The conceptual approach to reality, its objects, and events have also given rise to the conceptual theory of metaphor. Within the conceptual theory of metaphor, man perceives the world in which he lives with the help of metaphor.

Because metaphor reflects the interaction of thought and language, and because metaphor and metaphorization are studied from a discourse plan, the study of metaphor event and metaphorization in language has always been relevant.
**Key words:** Metaphor, discourse, conceptual metaphor, argotic metaphor, metaphoric, metaphorical image.

## ОСНОВНЫЕ ПУТИ ДЛЯ ИССЛЕДОВАНИЯ МЕТАФОРА

**Айсель Мехтиева**
Лянкяранский государственный университет, Лянкярань, Азербайджан

Основным результатом метафоризации является метафора. Метафоры могут быть изучены сразных аспектов. Метафоры могут выступатъ средством описания и объяснения во всех областях. Метафора, всегда обогащает понимание человеческих действий, активности, знаний, языка. Повсеместность метафоры является ключевым фактором в подтверждении его актуальности для различных дискурсов. Концептуальный подход к реальности, его объектам и событиям также привели к концептуальной теории метафоры. В рамках концептуальной теории метафоры человек воспринимает мир, в котором он живет с помощью метафоры. Поскольку метафора отражает взаимодействие мыслей и языка, и поскольку метафора и метафоризация изучаются с точки зрения
дискурса, изучение метафоры события и метафоризации в языке всегда были актуальны.
**Ключевые слова**: метафора, дискурс, концептуальная метафора, арготическая метафора, метафоризация, метафорический образ.

Daxil oldu: 01.03.2022; Çapa qəbul edildi: 30.05.2022; Çap edildi: 20.06.2022

# AZƏRBAYCAN RESPUBLİKASININ CƏNUB-ŞƏRQ BÖLGƏSİNDƏ SƏNAYENİN İNKİŞAFI TARİXİNDƏN (2003-2018-Cİ İLLƏR)

**Emin Məlikov**
Lənkəran Dövlət Universiteti, Lənkəran, Azərbaycan
e-mail: eminmelikov79@gmail.com

**Xülasə.** Məqalə 2003-2018-ci illərdə Azərbaycan Respublikasının Cənub-Şərq bölgəsində sənayenin inkişafına həsr edilmişdir. Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu iqtisadi siyasət ölkəmizin Cənub-şərq bölgəsində sənayenin inkişafına şərait yaratmışdır. Bu dövrdə həyata keçirilən Dövlət Proqramlarına əsasən bölgədə yeni emal müəssisələri yaradılmış, sənaye sahələrinin inkişafı sürətləndirilmişdir. Yeni yaradılan zavodlar iş yerlərinin açılmasına, əhalinin sosial rifahının yaxşılaşmasına kömək etmişdir.Məqalədə müəllif tərəfindən statistik marteallardan istifadə edilərək bölgədə sənayenin inkişafı öyrənilmişdir.Tədqiqat zamanı nəticəyə gəlinmişdir ki,bölgənin kənd təsərüfatı sahəsi üzrə istehsallaşmasına baxmayaraq Lənkəran, Masallı, Astara və Cəlilabad inzibati rayonları ərazisində sənaye məhsulları istehsal edən emal zavodları yaradılmışdır.2018-ci ildə bölgə üzrə fəaliyyət göstərən sənaye müəssisələrin sayı 96-ya, sənaye məhsulunda qeyri - dövlət sektorunun xüsusi çəkisi 70,9 faiz, hazır məhsul ehtiyatının ilin axırına qalığı 30046,9 min manat olmuşdur.

**Açar sözlər:** Azərbaycan Respublikası, Cənub-şərq bölgəsi, Lənkəran, Masallı, Astara

## Giriş

Azərbaycan Respublikasının Prezidentinin 2003-cü il 24 noyabr tarixli "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" Fərmanı ölkənin inkişaf istiqamətlərini müəyyənləşdirmişdir. Ölkədə həyata keçirilən Dövlət Proqramlarına uyğun olaraq regionlarda yeni emal müəssisələri yaradılmış sənaye sahələri inkişaf etmişdir. Dövlət Proqramlarında nəzərdə tutulmuş tədbirlərdə hər bir bölgənin iqtisadi imkanları nəzərə alınmaqla prioritet sahələrin inkişafı nəzərdə tutulmuşdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən 2004-cü il 11 fevral tarixli "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının (2004-2008-ci illər)" təsdiq edilməsi haqqında Fərmanı respublikanın Cənub-şərq bölgəsində sənayenin inkişafını sürətləndirdi. Regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramları bölgədə sənayenin inkişafına əsas təsir göstərmişdir. Yeni emal müəssisələrinin yaradılması lahiyələri reallaşdırıldı.

### Cənub-şərq bölgəsində sənayenin inkişafı

1990-cı illərin əvvəllərində bölgə sənayesi tənəzülə ugramış, müəssisələr fəaliyyətini dayandırmışdır. 1995-ci illə müqayisədə 2004-cü ildə bölgəsi üzrə sənayenin ümumi istehsal həcmi 7,2 dəfədən çox artmışdır. Bölgədə qida sənayesi istiqamətində əsaslı iş aparılmışdır. 2004-cü ildə Lənkəran rayonunda "Vita", "Lənkəran-süd", ASC, "Lüks", "Çinar" və "Maz" müəssisələri yaradılmış burada burada konservləşdirilmiş meyvə-tərəvəz məhsulları istehsal edilmişdir. Yerli fermerlər istehsal etdikləri məhsulları istehsal müəssisələrinə təhvil verərək

bununla kənd təsərrüfatının inkişafına da şərait yaranmışdır. 2005-ci ilin birinci yarısında "Vita" MMC-ti tərəfindən 880 q dəmir bankalarda 83000 ədəd tomat pastası istehsal edilmişdir. "Çinar" emal və istehsal müəssisəsində 7400 ədəd qazlaşdırılmış su istehsal edilərək yerli bazara çıxarılmışdır. Rayonun "Digah tərəvəz", "Real" MMC, "Optimal" və "Lənkəran konserv kombinatı" emal sənayesini genişləndirmiş və 9500 ton tərəvəz məhsulunu emal edərək bazara çıxarmışdır [5, 2005].

2005-ci il sentyabrın 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Yardımılı rayonunda ilk sənaye müəssisəsi olan "Xalça və tikiş" sexinin açılışını etmişdir. Müəssisədə bölgədə qədim xalq sənəti olan xalçaçılığın inkişafında mühüm rol oynayacaqdır. Yardımlı qəsəbəsinin "Yeni Yardımlı" yaşayış massivində salınmış Ticarət Mərkəzi sənaye malları istehsalı və satışı bölmələrindən ibarətdir. Yardımlı rayonunda yaradılan müəssisələr yeni iş yerlərinin yaradılmasına şərait yaratmış, rayon əhalisinin məşğulluğunu təmin etmişdir. Rayonda xalçaçılığın inkişaf etdirilməsi məqsədiylə "Caspian Fruit Co" MMC-i razılıq əldə olunmuşdur. Xalçaçılığın bərpa edilməsi bölgədə yüngül sənayenin inkişafı istiqamətində ən uğurlu addımlardan biridir. 2006-cı il avqustun 11-də "Palmalı" şirkətlər qrupu tərəfindən Lənkəran süd zavodu fəaliyyətə başlamışdır. Müasir standartlara uyğun qurulan zavodda 15 çeşiddə süd məhsulları istehsal edilmişdir. Günlük emal gücü 50 ton olan zavodun texniki avadanlığı Türkiyə və Almaniyadan gətirilmişdir. Rayonun ən böyük konserv emal müəssisəsi olan "Gilan" MMC-də il ərzində 110 ton məhsul istehsal edilmişdir. 2006-cı ildə rayonda "Xəzər balıq" MMM, "Kaspi" və "ABSK" müəssisələri tərəfindən balıq emalı həyata keçirilmişdir. Bu müəssisələr sənaye ovu və emalı ilə yanaşı balıqartırma zavodlarını nərə cinsli törədici balıqlarla da təmin etmişdir. 2006-cı ildə Lənkəran rayonunda balıq ovu və emalı sahəsində 5 özəl şirkət hüquqi şəxs qismində fəaliyyət göstərmişdir. Bu şirkətlər tərəfindən 2451,3 ton müxtəlif balıq məhsulları ovlanaraq emal edilmişdir [6, s.200]. Rayonda kürü emalı müəssisələri ilə yanaşı hislənmə və balıq unu hazırlayan zavodlar fəaliyyət göstərmişdir. Astara rayonunda sahibkar Osmanağa Qurbanov tərəfindən tərəvəz və sitrus meyvələri emal edən "Astara 1" və "Astara 2" zavodları fəaliyyətə başlamışdır. "Astara-1" zavodu Telman, Pensər, Siyəkəran, Kakalos, Şahağacı və "Astara 2" zavodu Maşxan, Ərçivan, Təngərüd, Supəribağ, Kijəbə, Səncərədi, Süvi, Kələdəhnə kəndlərini ərazisində yetişdirilən tərəvəz sitrus meyvələrini qəbul edərək emal edəcəkdir. Emal müəssisələri gün ərzində 300 ton tərəvəzi qəbul etmək imkanlarına malikdir. Zavod rəhbərliyi 30 fermer təşkilatlarına 150 milyon manat faizsiz kredit vermişdir [10]. 2006-cı il avqustun 11-də "AY-NT" MMC-tinə məxsus Lənkəran Tikiş fabriki istifadəyə verilmişdir. Fabrikdə idman geyimləri tikilir, sifarişlər qəbul olunur, etketlər və emblemlər hazırlanır. Naxış toxumaq məqsədiylə fabrikdə yeni texnologiya quraşdırılmışdır. Burada istehsal olunan məhsul yerli bazarla yanaşı xaricə istehsal olunur. Müəssisədə 120 nəfər yerli sakin işlə təmin edilmişdir. 2007-ci ildə Lerik rayonunda sənətkarlığın inkişafı xüsusiyyətlərinin öyrənilməsi məqsədiylə Almaniya Texniki Əməkdaşlıq Təşkilatı (GTZ) və iqtisadi inkişaf Nazirliyi ilə birgə "Sənətkarlığın inkişafı layihəsi" çərçivəsində bölgədə monitorinq işləri aparılmışdır. Rayonun

Noda, Çayrud, Cəngəmiran və Singədulan kəndlərində "Azərxalça" İstehsalat Birliyinin filiallarının açılması nəzərdə tutulmuşdur. "Azərxalça" İstehsalat Birliyinin rayon filialının qəzalı vəziyyətində olan binasının bərpası üçün Nazirlər Kabinetinə müraciət olunmuşdur. Dövlət Proqramlarına uyğun olaraq bölgədə sənaye sahələrinin inkişafı istiqamətində tədbirlər həyata keçirilmiş və müsbət nəticə əldə edilmişdir. (bax.cədvəl № 1). Həyata keçirilən tədbirlər müsbət nəticəsini vermiş ölkə üzrə sənaye sektorunda istehsal olunan məhsul 21,8 milyard manat təşkil etmiş və 2008-ci ildə ümumi daxili məhsulun 57,4 faizinə bərabər olmuşdur [2, s.8].

**Respublikanın cənub-şərq bölgəsi üzrə sənaye müəssisələrin sayı. Cədvəl № 1**

| Rayonlar | 2004-cü il | 2005-ci il | 2006-ci il | 2007-ci il | 2008-ci il |
|---|---|---|---|---|---|
| Astara | 10 | 11 | 11 | 8 | 8 |
| Cəliləbad | 8 | 8 | 8 | 7 | 8 |
| Lerik | 2 | 3 | 3 | 2 | 3 |
| Lənkəran | 40 | 38 | 41 | 48 | 42 |
| Masallı | 21 | 17 | 16 | 16 | 16 |
| Yardımlı | 1 | 1 | 1 | 1 | 2 |

Dövlət Proqramlarına uyğun olaraq bölgədə sənaye sahələrinin inkişafı istiqamətində tədbirlər həyata keçirilmiş və müsbət nəticə əldə edilmişdir. Əgər bölgə üzrə fəaliyyət göstərən sənaye müəssisələrin sayı 2005-ci ildə 78 idisə, 2010-cu ildə bu rəqəm 92-yə catmış, sənaye məhsulunun həcmi əvvəlki ilə müqayisədə 97,3 faiz artmışdır. Bölgə sənaye məhsulunun həcmi qeyri-dövlət sektorunun xüsusi çəkisi 2010-cu ildə 56,2 faiz, işçilərin orta sayı 3895 nəfər, orta aylıq əmək haqqı isə 212,5 manat olmuşdur. 2008-ci ildə bölgənin sənaye üzrə fəaliyyət göstərən müəssisələrin sayı Lənkəranda 42, Astarada 8, Lerikdə 3, Masallıda 16, Yardımlı və Cəliləbadda 8 olmuşdur ( bax. cədvəl № 2). Müasir standartlara cavab verən "Nur-süd" MMC "Pal-süd" markası ilə süd məhsulları istehsal edir. 2011-ci ilin birinci rübündə müəsisədə 2 420 000 l süd məhsulları istehsal edilmişdir. Müəsisədə 10 çeşiddə məhsul istehsal olunur [3, 2011, siy. 1, vər. 97].

**Respublikanın cənub-şərq bölgəsi üzrə sənayenin ümumi göstəriciləri. Cədvəl № 2**

